

Milli azadlıqdan şirin nemət yoxdur!

*H. Əliyev*

# 25 il öncə, bu gün 11 oktyabr 1998-ci il...

## Etimadın növbəti təzahürü




Bax səh. 4


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 11 oktyabr 2023-cü il, çərşənbə / № 185 (6529). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik




# 3 dəfə məğlub olan...

# Fransanın hər hansı formatdakı iştirakı Azərbaycanı qane etmir

**Fransanın beynəlxalq miqyasda Azərbaycana qarşı oynamağa çalışdığı bütün siyasi oyunlar iflasa uğrayır. Ötən illərdə zaman-zaman davam etdirilmiş, II Qarabağ müharibəsindən sonra isə intensivləşdirilmiş bu siyasi "gedişlər" isə birmənalı şəkildə ermənipərəst marağa əsaslanır. Belə ki, Azərbaycanın mühüm qələbə əldə etməsi, Ermənistanın isə məğlub olaraq kapitulyasiya imzalaması, ardından 24 saatlıq antiterror tədbirlərində xuntanın çöküşü Fransanın illərdir davam edən "status-kvo" oyununu...**

Bax səh. 2

# Vətən müharibəsinin 15-ci günü

## 11.10 2020

• Ermənistan silahlı qüvvələri Gəncə şəhərini ağır artilleriya atəşinə tutub. Gecə saat 2 radələrində cəbhə zonasından kənarda yerləşən şəhərin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 3-ü qadın olmaqla 7 nəfər həlak olub, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Həmçinin 10-dan çox çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

• Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərində mülki əhaliyə qarşı törətdiyi qanlı terror aktı ilə bağlı dünya birliyinə müraciət edib.

• FHN-in Gəncədə düşmənin raket atəşi nəticəsində dağılan binada axtarış-xilasetmə işlərinin yekunları ilə bağlı yaydığı məlumatda dağıntılar altından xəsarət almış 17 nəfərin və 9 cəsədin çıxarıldığı bildirilib.

• Düşmənin gecə saat 4 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 kilometrdən çox uzaqda yerləşən iri sənaye şəhəri Mingəçevirə atdığı raketlər Ordumuzun Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən zərərsizləşdirilib.

# Azərbaycan 20 il əvvəl və bu gün...

Bax səh. 3

# Avropa üçün yeni və etibarlı mənbə

Quruda və dənizdə zəngin resurslara malik olan Azərbaycanın Avropa İttifaqı (Aİ) məkanının enerji təhlükəsizliyinin təmin olunmasında rolu getdikcə artır. Əgər enerji əməkdaşlığının birinci mərhələsində respublikamız "qoca qitə"yə yalnız neft və neft məhsulları tədarük edirdisə, indiki mərhələdə Avropaya enerji məhsullarının ixracına qaz seqmenti də əlavə olunub. Məlum geosiyasi gərginliklər fonunda Aİ məkanına daxil olan ayrı-ayrı ölkələr üçün yeni çağırışlar yarandı. Bu çağırışlar eyni zamanda Rusiyadan azalan və yaxud tamamilə kəsilən təchizatın yeni mənbələr hesabına qarşılanması zərurəti ilə bağlı idi. Belə bir taleyüklü məqamda ədalətli enerji siyasəti aparan Azərbaycan "qoca qitə"nin mavi yanacağa artan tələbatını əhəmiyyətli dərəcədə qarşılamağa hazır olan ölkə qismində çıxış etdi. Hazırda ölkəmiz Avropa üçün yeni və etibarlı mənbə sayılır.

Azərbaycan Avropanın mavi yanacaq bazarına ilk olaraq "Şahdəniz"dən hasil edilən qazla daxil olub. Ancaq Azərbaycanın qaz ehtiyatları yalnız "Şahdəniz" də cəmləşməyib. 2023-cü ildə Azərbaycan özünün enerji siyasətinin mavi yanacaq seqmenti üzrə daha bir mühüm uğura imza atıb. Söhbət Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə hasilata başlanılmasından gedir. Məlum olduğu kimi, bəzi məkrli, azərbaycanafob dairələr hansı yollarlasa Azərbaycanın enerji siyasətinə pəl vurmaq, ölkəmizə beynəlxalq inamı azaltmaq məqsədi ilə respublikamızın ehtiyatlarının azaldığı barədə dezinformasiyalar yayırdılar. Növbəti zəngin qaz yatağında - "Abşeron"da hasilata start verilməsi ilə belə iddialar tar-mar oldu.

"Abşeron" yatağının ehtiyatları 300 milyard kubmetr həcmində dəyərləndirilir. Yatağın işlənməsinin ilkin mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik...

Bax səh. 2-3




Bax səh. 4

# İƏT-ə uğurlu sədrlik...

# Azərbaycanda heç bir etnik azlıq özünü təhlükədə hiss edə bilməz !

Bax səh. 6

# Mehriban qonşuluq siyasətinə sadiqik

Bax səh. 6

# Böyük Qayıdış sürətlə davam edir

Bax səh. 5

# Bakı zəruri addımları atır

Hazırda regionda baş verən proseslər, Azərbaycanla Ermənistanın münasibətlərinin normallaşdırılmasına dair aparılan danışıqlar beynəlxalq birliyin diqqət mərkəzindədir.Tərəflər arasında vasitəçilik edən ölkələrdən biri də ABŞ-dır. Rəsmi Vaşinqton dəfələrlə Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasında maraqlı olduğunu və bu prosesə töhfə verməyə hazır olduğunu bəyan edib.

Yeri gəlmişkən, ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono ölkəmizə növbəti dəfə səfər edib və oktyabrın 9-da xarici işlər naziri Ceyhun Bayramovla görüşüb. Görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, regiondakı mövcud vəziyyət, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində ölkəmiz tərəfindən atılan addımlar barədə fikir mübadiləsi aparılıb. Ceyhun Bayramov ölkəmizin ərazisində qanunsuz mövcudluğunu davam etdirən erməni silahlı qüvvələrinin növbəti təxribatlarına cavab olaraq başlayan antiterror tədbirləri, onları şərtləndirən səbəblər barədə tərəfi məlumatlandırıb, Ermənistanın beynəlxalq ictimaiyyəti yanlış yönləndirməyə istiqamətlənən qondarma qarayaxma təbliğatının bölgədəki reallıqları əks etdirmədiyini vurğulayıb.

Ermənistan tərəfinin sülh prosesini ciddi təhlükə altına alan, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş bəyanat, ritorika və təxribatlarının hələ də davam etdirildiyini diqqətə...

Bax səh. 6



# Ermənistan yenə "şikayətçi" obrazında...

Bax səh. 7



# İsrail-Fələstin müharibəsi: görünən və görünməyən tərəflər

Bax səh. 7

# İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına

Hörmətli iclas iştirakçıları!

Azərbaycan xalqı üçün müqəddəs olan, mədəniyyət paytaxtımız Şuşa şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası münasibətilə Sizi səmimi-qəlbdən salamlayıram.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və təşkilata üzv olan dövlətlərlə münasibətlərinə xüsusi əhəmiyyət verir. İƏT regionumuzun nəhəng iqtisadi potensialından daha səmərəli istifadə, region ölkələri arasında iqtisadiyyat və ticarət sahəsində əlaqələrin inkişaf etdirilməsi baxımından əlverişli imkanlara malikdir. Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə genişlənməsinin tərəfdarıdır. Bir neçə gün öncə Şuşa şəhərinin 2026-cı il üçün İƏT-in turizm paytaxtı elan edilməsinə görə təşəkkürümü bildirirəm.

Siz olduqca əlamətdar və tarixi dövrdə Azərbaycana gəlmisiniz. Xalqımız Azərbaycanın suverenliyini, konstitusiya quruluşunu bərpa etməsinin sevincini, qürurunu yaşayır. Otuz ildən sonra ərazilərimizdə mövcud olan “boz” zonanın aradan qaldırılması, separatizmə son qoyulması beynəlxalq hüququn və ədalətin təntənəsidir.

Azərbaycan daim sülhün tərəfdarı və bölgədə sülh təşəbbüslərinin müəllifi olub. Regional məsələlərin bilavasitə region ölkələrinin iştirakı ilə həll edilməsi prinsipindən çıxış edərək Azərbaycan 3+3 əməkdaşlıq formatını irəli sürüb. Hazırda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və Cənubi Qafqaz bölgəsinin sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi şərait yaranmışdır.

2020-ci ildə əzəli torpaqlarımız Ermənistanın işğalından azad edildikdən dərhal sonra burada irimiqyaslı bərpa-quruculuq işlərinə başlanılmışdı. Qısa zaman kəsiyində bu ərazilərdə vacib infrastruktur layihələri həyata keçirilmiş, o cümlədən iki yeni hava limanı tikilib istifadəyə verilmişdir. Üçüncü hava limanı isə hazırda Laçında inşa edilir. Füzuli şəhərində artıq inşası başa çatmış məktəbə və tikilməkdə olan yaradıcılıq mərkəzinə görə qardaş Özbəkistana və Qazaxıstana təşəkkür edirəm. Biz bunu ölkələrimiz arasında qardaşlığın, həmrəyliyin və dostluğun növbəti bariz təzahürü kimi qiymətləndiririk.

İşğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” proqramı milli prioritetlərimiz sırasındadır. Uğurla icra edilən proqram çərçivəsində bu günə qədər Laçın, Füzuli şəhərlərinə, Ağalı, Zabux və Talış kəndlərinə köçkünlərin qayıtması təmin olunub. Növbəti 3 ildə 100 minə qədər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır. Həyata keçirilən layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına xidmət etməklə, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün əlverişli şərait yaradır.

30 illik işğalın Azərbaycan xalqı üçün ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizə, o cümlədən İslam dininə aid bütün abidələrə qəsdən vurulmuş ziyandır. Əfsuslar olsun ki, bu dövrdə 67 məsciddən 65-i yerlə-yeksan edilmiş, qalan məscidlərə qarşı isə heyvanların saxlanılması kimi təhqiramiz əməllər törədilmişdir. Bu günlərdə daha bir məscidin - Malıbəyli məscidinin dağıdılması və tövlə kimi istifadə edilməsi faktı aşkar edilmişdir. Bütün bunlar təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərinin təhqir olunması deməkdir.

Azərbaycanın İƏT-də sədrlik mövzusunun “Yaşıl keçid və qarşılıqlı bağlantılar” kimi müəyyən edilməsi hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir. Dekarbonlaşma, “yaşıl enerji” növlərinin artırılması kimi məsələlər ölkəmizin dayanıqlı inkişaf gündəliyinin əsasını təşkil edir. Eyni zamanda “yaşıl enerji” zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyasına uyğun olaraq həyata keçirilir.

Azərbaycan, eyni zamanda, etibarlı tranzit ölkədir və bizim nəqliyyat-logistika infrastrukturumuz bütün İƏT ölkələri üçün açıqdır. Şərq-Qərb marşrutu üzrə yükdaşımalara tələbatın artdığını nəzərə alaraq biz Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşınan yüklərin həcminin 1 milyon tondan 5 milyon tona çatdırmağı hədəfləyirik. Həmçinin İran İslam Respublikasının ərazisi vasitəsilə Naxçıvan Muxtar Respublikasına çıxış imkanı yaradacaq avtomobil və dəmir yolunun çəkilməsi barədə bu ölkə ilə razılıq əldə olunmuşdur. Azərbaycan, eyni zamanda, Şimal-Cənub Nəqliyyat Dəhlizinin ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi üzərində fəal çalışır.

Əminəm ki, bu iclas ölkələrimizin və bütövlükdə regionun davamlı inkişafı və rifahı naminə yeni əməkdaşlıq imkanları ətrafında faydalı fikir mübadiləsi aparmaq və səyləri əlaqələndirmək üçün əhəmiyyətli platforma olacaq, qarşılıqlı faydalı tərəfdaşlığın yeni məzmunla zənginləşməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, iclasın işinə uğurlar diləyirəm.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

# Regional əməkdaşlıq məsələləri müzakirə olunub

## Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Azərbaycan Prezidentinin qəbulunda



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin gündəliyindəki məsələlərin çox geniş olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından keçən dövr ərzində ikitərəfli münasibətlərimizin həqiqətən müttəfiqlik xarakteri daşıdığını nümayiş etdirdiyini dedi və bunun bütün sahələrdə özünü göstərdiyini vurğuladı.

Azərbaycan Prezidenti regional təhlükəsizlik, iqtisadi əlaqələr, nəqliyyat və digər sahələrlə bağlı əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Nikolay Patruşev, ilk növbədə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad etdi.

Dövlətimizin başçısı Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə Ümummilli Liderin xatirəsinə ehtiram əlaməti olaraq Rusiyada dövlət səviyyəsində tədbirlərin keçirilməsinə görə minnətdarlığını bildirdi.

Qonaq Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından sonra əlaqələrimizin daha da genişləndiyini məmnunluqla vurğuladı.

Görüşdə qlobal və regional məsələlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, regional əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı regional məsələlərin 3+3 formatında region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini vurğuladı, bu formatda müvafiq səviyyələrdə görüşlərin keçirilməsini qeyd etdi.

Söhbət zamanı Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi istiqamətində Azərbaycan-Rusiya-İran arasındakı əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# 3 dəfə məğlub olan...

## Fransanın hər hansı formatdakı iştirakı Azərbaycanı qane etmir



Fransanın beynəlxalq miqyasda Azərbaycana qarşı oynamağa çalışdığı bütün siyasi oyunlar iflasa uğrayır. Ötən illərdə zaman-zaman davam etdirilmiş, II Qarabağ müharibəsindən sonra isə intensivləşdirilmiş bu siyasi “gedişlər” isə birmənalı şəkildə ermənipərəst marağa əsaslanır. Belə ki, Azərbaycanın mühüm qələbə əldə etməsi, Ermənistanın isə məğlub olaraq kapitulyasiya imzalaması, ardından 24 saatlıq antiterror tədbirlərində xuntanın çöküşü Fransanın illərdir davam edən “status-kvo” oyununu pozdu. Müharibə dövründə, eləcə də post-müharibə zamanında fərqli üsullarla Azərbaycana qarşı “təzyiq kampaniyası” yürütməyə çalışan rəsmi Paris bu məsələ ilə bağlı hətta beynəlxalq hüququ belə gözardı etdi. Aparılan ermənipərəst siyasətin ardı-arası kəsilmir - istər prezident Makronun Qarabağla bağlı cəfəng fikirləri, istər Fransa parlamentinin qəbul etməyə çalışdığı qondarma “qətnamələr”, istərsə də Fransanın beynəlxalq aləmdə oynamağa çalışdığı oyunlar işə yaramır. Fransanın regionla bağlı “müstəmləkə arzuları” ürəyində qalır. BMT müstəvisində belə Azərbaycana 3 dəfə məğlub olan Paris Ermənistanın timsalında özünün regiondakı əlaltısını müəyyənləşdirib və onun əli ilə regiona nüfuz edəcəyini düşünür. Məsələn, Qranadada planlaşdırılan görüşün mahiyyətində duran məsələlərdən biri məhz bu idi. Fransa prosesə özünəməxsus müdaxilələr etmək istəyini nümayiş etdirir - bu, yolverilməzdir. Azərbaycan özünün haqq işində qətiyyətindən bir addım da geri çəkilmir.

### Azərbaycanın addımları beynəlxalq hüquqa tam şəkildə uyğun olub

Bu məsələ oktyabrın 7-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasındakı telefon danışığı zamanı da müzakirə edilib. Prezident İlham Əliyev, həmçinin Fransanın məlum mövqeyinə görə Azərbaycanın Qranadadakı görüşdə iştirak etmədiyini bildirib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə edərək suverenliyini tam şəkildə təsbit edib və öz ərazisində mövcud olan qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsini təmin edib. Bu baxımdan Azərbaycanın atdığı addımlar beynəlxalq hüquqa tam şəkildə uyğun olub.

Dövlətimizin başçısı əlavə edib ki, əksinə, bu məsələni başa düşməyən dövlətlərin özlərinin dünyanın müxtəlif bölgələrində həyata keçirdikləri siyasətlərinə görə beynəlxalq hüquqla ciddi problemləri var.

Bəli, Fransada hələ də irqi ayrı-seçkilik məsələsi aktual sayılır, son dövrlərdə əlcəzairli gənc bu ayrı-seçkiliyin qurbanına çevrilmişdi. Fransanın Afrikadakı koloniyaları, dəniz aşırılarındakı torpaqları, çox uzağa getmədən XIX - XX əsrdə törətdiyi soyqırımları onun neokolonist siyasətinin ifşasıdır. Rəsmi Paris həmin ərazilərdəki insanların ən adi hüquq və azadlıqlarını tanımır, onları beynəlxalq hüququn verdiyi imkalardan kənar salıb. Budurmu Fransanın “ədalət” anlayışı?

### Paris bütün dövrlərdə şər-böhtan kampaniyası aparıb

Xatırladaq ki, 2020-ci il Vətən müharibəsi dövründə də bu ölkənin rəsmi dairələri mütəmadi olaraq faktları təhrif etməyə çalışır, Azərbaycana qarşı şər-böhtan kampaniyaları aparırdılar. Hətta bu ölkənin rəsmi strukturlarının himayəsində olan bəzi kanallar Vətən müharibəsi dövründə Suriyadan və ya Livandan gələn və Ermənistanın tərəfindən döyüşən muzdluları Azərbaycanın “ayağına” yazmağa çalışırdılar. Beləliklə, Fransanın əsl siması Vətən müharibəsi dövründə Azərbaycan ictimaiyyətinə bir daha bəlli oldu.

Ardından post-müharibə dövründə Fransa prezidenti postuna və mövqeyinə uyğun olmayaraq, həqiqətləri təhrif edərək Azərbaycanı “işğalçı” adlandırmışdı. İndiki məqamda isə Fransanın yenidən “demarş” arzusu sülhə qarşı istiqamət alıb - Paris bütün “gücünü” Cənubi Qafqazda qurulması nəzərdə tutulan təhlükəsizlik arxitekturasının qarşısının alınmasına yönəldib.

### Azərbaycanın qətiyyəti...

Amma Fransa bütün hallarda Azərbaycana qarşı məğlub durumdadır - BMT TŞ müstəvisində, Frankafoniyada... və Qranadada. Parisin planları boşa çıxdı. Azərbaycan hər zaman imzasına, sözünə cavabdehdir - sülh uğrunda bütün səylərini ortaya qoyur. Sözü ilə imzası arasında fərq olmayan Azərbaycanın beynəlxalq müstəvidəki yeri və rolu danılmazdır - Fransa kimi ölkələr nə qədər cəhd göstərsələr də Azərbaycanla bağlı hansısa ədalətsiz və haqsız “sənədi” beynəlxalq aləmə qəbul etdirə bilməzlər.

Azərbaycanın isə Fransaya qarşı etirazı açıq kontekstdədir - məsələn, hələ Qranadadan öncə, ötən il dekabrın 7-də Aİ-nin vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında keçirilən görüşün baş tutmasının da səbəbkarının Fransa olması açıq şəkildə bildirilmişdi - Azərbaycan Prezidenti bu faktı beynəlxalq tədbirdə açıqlamışdı. Budur Azərbaycanın qətiyyəti və qəti fikri. Ölkəmiz yürütdüyü siyasətində hər zaman milli maraqlara üstünlük verir. Bizim üçün Fransanın Ermənistanın “böyük bacı”sı olması heç nəyi dəyişmir və heç nəyə də təsir etmir...

***P.SADAYOĞLU***

# Avropa üçün yeni və etibarlı mənbə

Quruda və dənizdə zəngin resurslara malik olan Azərbaycanın Avropa İttifaqı (Aİ) məkanının enerji təhlükəsizliyinin təmin olunmasında rolu getdikcə artır. Əgər enerji əməkdaşlığının birinci mərhələsində respublikamız “qoca qitəyə” yalnız neft və neft məhsulları tədarük edirdisə, indiki mərhələdə Avropaya enerji məhsullarının ixracına qaz seqmenti də əlavə olunub. Məlum geosiyasi gərginliklər fonunda Aİ məkanına daxil olan ayrı-ayrı ölkələr üçün yeni çağırışlar yarandı. Bu çağırışlar eyni zamanda Rusiyadan azalan və yaxud tamamilə kəsilən təchizatın yeni mənbələr hesabına qarşılanması zərurəti ilə bağlı idi. Belə bir taleyüklü məqamda ədalətli enerji siyasəti aparan Azərbaycan “qoca qitə”nin mavi yanacağa artan tələbatını əhəmiyyətli dərəcədə qarşılamağa hazır olan ölkə qismində çıxış etdi. Hazırda ölkəmiz Avropa üçün yeni və etibarlı mənbə sayılır.

### “Şahdəniz” yeganə mənbə deyil

Azərbaycan Avropanın mavi yanacaq bazarına ilk olaraq “Şahdəniz”dən hasil edilən qazla daxil olub. Ancaq Azərbaycanın qaz ehtiyatları yalnız “Şahdəniz” də cəmləşməyib. 2023-cü ildə Azərbaycan özünün enerji siyasətinin mavi yanacaq seqmenti üzrə daha bir mühüm uğura imza atıb. Söhbət Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən “Abşeron” qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə hasilata başlanılmasından gedir. Məlum olduğu kimi, bəzi məkrli, azərbaycanafob dairələr hansı yollarlasa Azərbaycanın enerji siyasətinə pəl vurmaq, ölkəmizə beynəlxalq inamı azaltmaq məqsədi ilə respublikamızın ehtiyatlarının azaldığı barədə dezinformasiyalar yayırdılar. Növbəti zəngin qaz yatağında - “Abşeron”da hasilata start verilməsi ilə belə iddialar tar-mar oldu.

“Abşeron” yatağının ehtiyatları 300 milyard kubmetr həcmində dəyərləndirilir. Yatağın işlənməsinin ilkin mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın “Neft Daşları”ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. JOCAP (Absheron Petroleum Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə SOCAR və TotalEnergies hər biri 50% paya malikdir.

Xəzərin Azərbaycan sektorundakı digər yataqların potensialı da kifayət qədər böyükdür. “Ümid” yatağının ehtiyatları 200 milyard kubmetrdən çoxdur. “Şahdəniz”, “Azəri-Çıraq-Günəşli” layihələrinin operatoru olan BP ilə icrasına başlanan “D 230” bloku, “Şəfəq-Asiman” və başqa qaz yataqlarının işlənilməsi üzərində işlər davam etdirilir.




### Avropaya qaz tədarükçüləri arasında ilk beşlikdə

Azərbaycanın Avropaya qaz ixracının tarixi qısa dövrü əhatə etsə də, ölkəmizin bu sahədə mövqeyi əhəmiyyətli dərəcədə möhkəmlənib. Bu ilin birinci rübünün yekunlarına görə, respublikamız Avropaya boru kəməri ilə qaz tədarükçüləri arasında ilk 5-liyə daxil olub. Bu barədə Avropa Komissiyasının Avropa qaz bazarındakı vəziyyəti ilə bağlı rüblük hesabatında bildirilib

Məlumata görə, 2023-cü ilin birinci rübündə ölkə Trans-Adriatik kəməri (TAP) ilə Aİ ölkələrinə qaz nəqlini ötən ilin müvafiq dövrü ilə müqayisədə 13 faiz artıraraq 2,8 midyard kubmetrə çatdırıb. Bildirilir ki, yanvar-mart aylarında ilk beş ən böyük təchizatçı siyahısına Norveç, Şimali Afrika, Rusiya və Böyük Britaniya da daxildir. Azərbaycan bu siyahıda 5-ci yerdə qərarlaşıb.

Xatırladaq ki, ötən il iyulun 18-də ölkəmizlə Avropa İttifaqı arasında “Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu” imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin imzaladıqları sənədlə ölkəmizlə Aİ arasında enerji dialoqunun keyfiyyətcə yeni səviyyəyə yüksələcəyi fikrini qətiyyətlə ifadə edə bilərik. Həmin sənədi bütövlükdə enerji dialoqunun müxtəlif aspektlərini əhatə edən strateji yol xəritəsi kimi də dəyərləndirmək mümkündür. Memorandumda tərəflərin Xəzər sahillərindən “qoca qitə”yə qaz ixracının artırılması ilə bağlı niyyətləri də ifadə olunub.

Bəhs olunan sazişə uyğun olaraq respublikamız Avropaya qaz ixracını artırır. Rəsmi statistikaya əsasən, bu ilin altı ayında ölkədə 18,2 milyard kubmetr qaz hasil edilib ki, bu da ötən ilin eyni dövründəkindən 3,2 faiz çoxdur. 2023-cü ilin yanvar-iyun aylarında ölkə qaz ixracını 7,5 faiz artıraraq 12 milyard kubmetrə çatdırıb. Bu dövrdə Avropaya 5,7 milyard kubmetr Azərbaycan qazı ixrac olunub ki, bu da bütün ixracın 48 faizini təşkil edir. Türkiyəyə 5 milyard kubmetr (bütün ixracın 41 faizi), Gürcüstana isə 1,3 milyard kubmetr qaz (bütün ixracın 11 faizi) ixrac olunub.

Müqayisə üçün bildirək ki, 2022-ci ildə Azərbaycan qaz ixracını 22,3 milyard kubmetrə çatdırıb. Bunun 11,4 milyard kubmetri Avropaya ixrac olunub. 2023-cü ildə Azərbaycandan qaz ixracı 24,5 milyard kubmetr həcmində nəzərdə tutulub. Bunun 12 milyard kubmetrə qədəri Avropaya nəql olunacaq. 2027-ci ilədək isə Avropa məkanına qaz ixracının həcminin iki dəfə artırılması hədəflənib ki, bu da tam realdır.

**davamı 3-cü səhifədə**

# Azərbaycan 20 il əvvəl və bu gün...

## İqtisadi müstəqillik yolunda

Son 20 ildə müstəqil Azərbaycan bütün dünyada təqdir olunan nümunəvi idarəçilik modeli yaradıb. Ölkəmiz istisnasız olaraq bütün sahələrdə uğurla inkişaf edib, yeni nailiyyətlərə imza atıb. Hazırda respublikamız narahat dünyada sabitlik və inkişaf adası kimi fərqlənir. Qazanılan uğurların əsas memarı isə bəhs olunan dövrdə respublikamıza idarəçiliyi böyük məharətlə həyata keçirən Prezident İlham Əliyevdir. Xatırladaq ki, 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs verərək Onu dövlət başçısı görmək istəyini ifadə edib. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr ərzində bütün sahələrdə müqayisəyəgəlməz tərəqqiyə nail olunub. Belə ki, son 20 ildə xalqa verilən vədlər bütünlüklə yerinə yetirilib və müstəqil Azərbaycan yeni inkişaf mərhələsinə yüksəlib.

### Biz öz hesabımıza yaşayırıq

Hər bir ölkənin siyasi müstəqilliyinin təmin olunması və qlobal miqyasda nüfuzunun artması böyük dərəcədə onun iqtisadi inkişaf səviyyəsindən asılıdır. Praqmatik siyasətçi olan Prezident İlham Əliyev hələ 2003-cü ildə seçkiqabağı təbliğat-təşviqat kampaniyası çərçivəsində bəyan etmişdi ki, əgər biz iqtisadi müstəqilliyə nail olmasaq, siyasi müstəqilliyimiz də yarımçıq olacaq. Azərbaycanın timsalında bu tezislərin nə qədər real olduğu bir daha təsdiqini tapıb.

Son 20 ildə Azərbaycanın dövlət siyasətində, bir qayda olaraq, iqtisadi inkişafla bağlı məsələlərin prioritetliyi gözlənilib. Respublikamızda dinamik iqtisadi inkişaf üçün bütün şərtlər yüksək səviyyədə təmin edilib. Ötən illərin təcrübəsinə nəzər salsaq, görərik ki, ölkəmizdə iqtisadi inkişafın ardıcıllığının təmin olunması üçün həm hüquqi baza davamlı şəkildə möhkəmləndirilib, həm də praktiki müstəvidə zəruri tədbirlər görülüb, iqtisadi subyektlərin öz fəaliyyətlərini genişləndirmələrinə dəstək artırılıb. Prezident İlham Əliyev milli iqtisadiyyatımızda istehsal və ixrac imkanlarının genişləndirilməsini hədəfləyən çoxsaylı fərman və sərəncamlar imzalayıb. Bəhs olunan sənədlər əsasında reallaşdırılan islahatlar respublikamızda yüksək rəqabət qabiliyyətinə malik liberal iqtisadiyyatın formalaşmasına, şəffaflığın təmin olunmasına, biznes mühitinin optimallaşmasına, büdcə daxilolmalarının artmasına münbit zəmin formalaşdırıb. Bütövlükdə, ölkəmizdə aparılan iqtisadi məzmunlu islahatların əhatə dairəsi kifayət qədər genişdir. Dövlət başçısının imzaladığı müvafiq fərmanla təsdiqlənən starteji yol xəritələrində milli iqtisadiyyatımızın mühüm istiqamətləri üzrə perspektiv inkişaf hədəfləri və onlara çatmaq üçün prioritetlər müəyyənləşdirilib.

Həyata keçirilən belə məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq respublikamızda yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyat formalaşıb. Qürurverici haldır ki, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib. 2004-cü ildən bəri bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri məhz Azərbaycanda qeydə alınıb. Belə ki, son 20 il ərzində respublikamızda ümumi daxili məhsul istehsalında dörd dəfə artım müşahidə edilib. Eləcə də büdcə gəlirlərimiz 30 dəfədən çox artıb. Xarici ticarət dövriyyəsi on dəfədən çox genişlənib.

Bu rəqəmlər ölkəmizin iqtisadi müstəqilliyinin təmin olunması yolunda necə böyük uğurlar əldə olunduğunu bir daha təsdiqləyir. Uğurlu inkişaf sayəsində Azərbaycanın özünün iqtisadi müstəqilliyini tam təmin etməsi ölkəmizin böyük uğurudur. Biz forpost dövlət olan Ermənistanın timsalında məhdud iqtisadi imkanların hansı ağır fəsadlara yol açdığını aydın şəkildə görürük. Bu ölkə yalnız sözdə müstəqildir, əslində isə asılı vəziyyətdədir, öz problemlərini özü həll etmək iqtidarında deyil. Buna görə də daim ayrı-ayrı güc mərkəzlərinin diktəsi və təsiri altında siyasi qərarlar qəbul etmək məcburiyyətində qalır. Azərbaycan isə dünyaya iqtisadi cəhətdən güclü, müstəqil siyasi qərarlar verən, milli maraqlarını qətiyyətlə qoruyan dövlət modeli təqdim edib. "Biz öz hesabımıza yaşayırıq. Heç kim bizə kömək etmir, heç vaxt da etməyib və etməyəcək. Ona görə də öz həyatımızı özümüz qururuq. Heç kimin işinə qarışmırıq, amma, eyni zamanda qoymuruq kimsə gəlsin bizim işimizə qarışsın. İqtisadi müstəqillik, yenə də deyirəm, siyasi müstəqilliyin təməl daşıdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Sərmayə qoyuluşunda davamlı artım

Ölkələrin sosial-iqtisadi inkişafı müxtəlif sahələrə sərmayə qoyuluşunun həcmindən bilavasitə asılıdır. Respublikamızda sərmayə mühiti kifayət qədər münbitdir. Uzunmüddətli daxili sabitlik, ardıcıllıqla həyata keçirilən islahatlar, qanunvericilik bazasının möhkəmləndirilməsi, korrupsiyanın və digər neqativ halların əhatə dairəsinin kiçildilməsi, idarəçilikdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, təşviq mexanizmlərinin işə salınması və bu kimi digər amillər respublikamızda investisiya qoyuluşunun genişlənməsini şərtləndirir. Əlamətdar haldır ki, ölkəmizdə dövlət-özəl sektor tərəfdaşlığı da getdikcə genişənir. Ayrı-ayrı layihələrin icrasına dövlət və özəl şirkətlər birgə sərmayələr yönəldirlər. Son 20 il ərzindəki respublikamızda müxtəlif sahələrə yönəldilən sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çox olub. Bu sərmayələrin 190 milyard dolları qeyri-enerji sektoruna yatırılıb.

Müxtəlif sahələrə investisiya qoyuluşunun artmasına bütün ölkə üzrə yaradılan müasir infrastruktur öz müsbət təsirini göstərir. Qeyd edək ki, respublikamızda müxtəlif təyinatlı infrastruktur obyektləri, bir qayda olaraq, dövlət əsaslı vəsait qoyuluşu hesabına reallaşdırılır. İnvestorlar isə böyük həcmlərdə maliyyə vəsaiti qoyuluşu hesabına araya-ərsəyə gələn bu yüksəksəviyyəli infrastrukturdan bəhrələnərək müxtəlif istiqamətlərə investisiyalar yönəldirlər.



### Dövlət borcunun azaldılması strategiyası

Sirr deyil ki, hazırda ayrı-ayrı ölkələr beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətdədirlər. Bunun təsdiqi olaraq xatırladaq ki, qlobal pandemiyanın pik mərhələsində artan xərcləri qarşılaya bilməyən təxminən 150 ölkə kömək üçün Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına üz tutdu. Azərbaycan belə ölkələr sırasında yer almadı. Respublikamızda pandemiya dövründə milli iqtisadiyyatın qorunması, iş yerlərinin saxlanılması, əhalinin sağlamlığının və sosial müdafiəsinin təmin olunması istiqamətində böyük maliyyə tutumuna malik layihələr reallaşdırdı. Eyni zamanda, Azərbaycan məsuliyyətli dövlət olaraq Ümumdünya Səhiyyə Təşkilatına, 60-dək ölkəyə yardımlar göstərdi.

Respublikamız həmçinin 2020-ci ildə ədalətli müharibə apararaq özünün ərazi bütövlüyünü təmin etdi. Pandemiya və müharibə dövründə böyük vəsaitlər xərclənməsinə rəğmən, respublikamız postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işlərinə start verdi. Müharibə başa çatandan bəri bu məqsədlər üçün təxminən 7 milyard dollar vəsait yönəldilib. Azərbaycan bu vəsaitləri heç kimdən borc almır, sırf öz gücünə təmin edir.

Bütün bunlar əyani şəkildə təsdiqləyir ki, Azərbaycan sosial-iqtisadi inkişaf üçün zəruri olan etibarlı "maliyyə yastığı"na malik olan ölkədir. Bunun nəticəsidir ki, respublikamız hələ bir neçə il bundan əvvəl xarici borc öhdəliyinin azaldılması strategiyası qəbul edib. Ölkənin xarici borcu ilbəil azaldılır. Hazırda respublikamızın xarici borc öhdəliyi ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Prezident İlham Əliyev bu rəqəmin daha da kiçiləcəyini bildirib: "2024-cü ilin sonuna qədər, planlarımıza uyğun olaraq, onun həcmi ümumi daxili məhsulun təxminən 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik".



### İnnovativ əsaslı sənaye quruculuğu

Azərbaycan iqtisadiyyatı tarixən enerji sektoru ilə sıx bağlı olub. Respublikamızda enerji resurslarının istehsalında və emalında zəngin ənənələr formalaşıb. Bu sahə indi də iqtisadiyyatımızın bel sütununu təşkil edir. Bununla belə, son 20 ildə Azərbaycan Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində postneft dövrünün iqtisadiyyatının qurulması istiqamətində inamlı addımlar atır. Enerji məhsullarının ixracından əldə olunan gəlirlərin müəyyən hissəsi məqsədyönlü şəkildə insan kapitalının formalaşdırılmasına, qeyri-neft sənayesinin inkişafına yönəldilir.

İnnovativ əsaslı sənaye quruculuğu ölkəmizin yeni hədəfləri sırasına daxildir. Dördüncü sənaye inqilabına transformasiya bütün ölkələr kimi Azərbaycanın da qarşısına yeni çağırışlar qoyub. Burada dövlətin siyasi iradəsi, insan kapitalı, zəruri fiziki və institusional infrastrukturun qurulması mühüm şərtlərdir. Deyə bilərik ki, respublikamızda dördüncü sənaye inqilabına transformasiyanı şərtləndirən bütün amillər yüksək səviyyədə təmin olunub. Azərbaycan müasir dövlət kimi inkişaf edir. Bu strateji kursa uyğun olaraq respublikamızda yeniliklərə daim "yaşıl işıq" yandırılır. 2021-ci ildə Prezident İlham Əliyev respublikamızda dördüncü sənaye inqilabına keçidin hüquqi əsaslarının möhkəmləndirilməsini və institusional infrastrukturun yeni çağırışlara uyğunlaşdırılmasını hədəfləyən iki mühüm sənəd imzaladı. Bunlardan biri 2021-ci il 6 yanvar tarixində imzalanmış "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında fərmandır. Prezident İlham Əliyevin 11 oktyabr 2021-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmanla isə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlandırılıb. Bütün bunlar Azərbaycan dövlətinin rəqəmsal transformasiyaya böyük önəm verdiyini əyani şəkildə təsdiqləyir.

Qeyd etdiyimiz kimi, rəqəmsal transformasiyanın mühüm şərtlərindən biri insan resursları ilə bağlıdır. Respublikamızda "qara qızıl"ın insan kapitalına çevrilməsi məqsədini hədəfləyən siyasətin aparılması rəqəmsal transformasiyaya keçidin yükünü, necə deyərlər, öz çiyinlərində daşıyacaq mütəxəssislərin, gənc kadrların formalaşmasını təmin edib.

### MDB məkanında bir ilk

Azərbaycanın rəqəmsal texnologiyalara keçid sahəsində qazandığı uğurlar beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Bunu Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afilədilmiş Azərbaycan Mərkəzinin (4SİM Afilədilmiş Azərbaycan Mərkəzi) təsis edilməsi bir daha təsdiqləyir. Mərkəzin yaradılmasının əsası 2020-ci ilin 21 yanvar tarixində İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında niyyət protokolunun imzalanması ilə qoyulub. 2021-ci ilin aprelində Bakıda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin Azərbaycan Mərkəzinin açılışı baş tutub. Bu, MDB məkanında açılan ilk belə mərkəzdir.

*M.ABDULLAYEV*

# Avropa üçün yeni və etibarlı mənbə

əvvəli 2-ci səhifədə

### Müasir nəql infrastrukturu

Dünyada mavi yanacaq ehtiyatları ilə zəngin olan ölkələrin sayı çoxdur. Ancaq onların heç də hamısı nəql infrstrukturuna malik deyillər və bu səbəbdən də öz resurslarını bazarlara çıxarmaqda böyük çətinliklərlə üzləşirlər. Avropa üçün yeni və zəngin mənbə sayılan Azərbaycanın isə üstünlüyü həm də ondadır ki, ölkəmiz zamanında ixrac boru kəmərinin yaradılması qayğısına qalıb və buna nail olub.

Açıq dənizə çıxışı olmayan Azərbaycanı Aralıq və Adriatik dənizləri ilə birləşdirən layihə - Cənub Qaz Dəhlizi bir vaxtlar çoxlarına xəyal kimi görünsə də, artıq reallıqdır. Cənub Qaz Dəhlizi üç boru kəmərindən ibarət inteqrasiya edilmiş boru kəmərləri sistemidir - Cənubi Qafqaz boru kəməri, Trans-Anadolu (TANAP) boru kəməri və Trans-Adriatik (TAP) boru kəməri. TAP İtaliyaya qədər uzanır. Cənub Qaz Dəhlizi 3500 kilometr uzunluğunda mürəkkəb texniki infrastrukturdur. Onun bir hissəsi hündür dağlardan, bir hissəsi isə dənizin dibindən keçir. 2020-ci ilin son günü - dekabrın 31-də layihənin yekun hissəsi olan TAP istifadəyə verildi. Həmin dövrdən etibarən Azərbaycan Türkiyə və Gürcüstandan əlavə, Avropanın ayrı-ayrı dövlətinə də təbii qaz ixrac edən ölkəyə çevrilib. Bu unikal layihənin icrasının tamamlanması ilə Avropa Azərbaycanın timsalında müasir nəql infrastrukturuna malik yeni etibarlı mənbə qazanıb. Hazırda artan tələbat nəzərə alınmaqla Cənub Qaz Dəhlizinin ötürücülük imkanlarının genişləndirilməsi gündəmə gəlib. Avropa Komissiyası genişləndirmə layihəsini dəstəkləyir. Layihənin icrası tamamlandıqdan sonra Cənub Qaz Dəhlizi ilə Avropaya daha böyük həcmlərdə mavi yanacaq nəqlini həyata keçirmək mümkün olacaq.



### Siyahıya yeni istehlakçılar əlavə olunur

Avropa üçün yeni və etibarlı mavi yanacaq mənbəyi qismində çıxış edən Azərbaycanın qısa müddətdə nəql coğrafiyasını genişləndirməsi də böyük uğurdur. Necə deyərlər, siyahıya yeni istehlakçılar da əlavə olunur. Bu istiqamətdə vacib tədbirlərdən biri 2022-ci ilin oktyabrında Yunanıstan-Bolqarıstan interkonnektorunun açılışı oldu. İnterkonnektorun açılış mərasimi dövlətimizin başçısının iştirakı ilə baş tutdu. Bunun nəticəsində artıq Azərbaycanın Bolqarıstana da qaz nəql etmək imkanı yaranıb. Qeyd edək ki, Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) ümumi uzunluğu 182 kilometrdir, Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirir. Hazırda Bolqarıstan vasitəsilə digər ölkələrə də qazın nəqli perspektivləri nəzərdən keçirilir. Rumıniya artıq yeni əməkdaşlıq formatının üzvüdür. Hər şey plana uyğun getsə və bütün interkonnektorlar bu ilin sonuna qədər inşa edilsə, Azərbaycan qazı Macarıstana və Serbiyaya da nəql ediləcək.

Marşrutların şaxələndirilməsi ilə bağlı digər bir mühüm tədbir Bolqarıstan Prezidentinin təşəbbüsü ilə bu ilin aprel ayında Sofiya şəhərində keçirilib. Söhbət "Həmrəylik Halqası" adlandırılan layihədən gedir. Bu layihəyə Azərbaycan, Bolqarıstan, Macarıstan, Rumıniya və Slovakiya daxildir. Təqdim olunan layihəyə uyğun olaraq əlavə interkonnektorlar inşa ediləcək. Qurulan optimal interkonnektor şəbəkəsi sayəsində yaxın illərdə Azərbaycan qazının avropalı müştərilərinin sayının 10 ölkəyə çatacağı gözlənilir.

*Mübariz ABDULLAYEV*

# 25 il öncə, bu gün
## 11 oktyabr 1998-ci il...

**Tarixin bu günündə - 1998-ci il oktyabrın 11-də müstəqil Azərbaycanda növbəti prezident seçkiləri keçirilib. Xalqın yüksək fəallığı şəraitində baş tutan həmin seçkilərdə Heydər Əliyev səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. Seçkilərin nəticəsi Azərbaycan xalqının Heydər Əliyevə böük hörmət və inamının təzahürü idi. Xalq istəyirdi ki, növbəti mərhələdə də Azərbaycanın idarəçilik sükanı məhz Onun əlində olsun. Azərbaycan cəmiyyətinin inamı isə təsadüfi deyildi. Bu etimad Heydər Əliyevin həm keçmiş sovet dönəmində, həm də müstəqilliyimizin ilk illərində xalq və Vətən naminə gördüyü işlərdən, misilsiz xidmətlərindən qaynaqlanırdı.**

## Azərbaycanın gələcək inkişafı üçün fundamental əsaslar yaradan dahi şəxsiyyət

1969-cu ildə Azərbaycanın rəhbərliyinə gələn Heydər Əliyev respublikamız barədə yaranan stereotipləri dağıtdı, keçmiş sovet rejiminin ideoloji buxovlarını məharətlə sındıraraq milli dirçəlişə, yeni intibaha, gələcəkdə müstəqil yaşamağa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail oldu. Azərbaycanın gələcək inkişafı baxımından güclü iqtisadiyyat qurulmasının önəmini yüksək dəyərləndirən Heydər Əliyev qısa müddətdə respublikamızı keçmiş ittifaqın aqrar əlavəsindən çıxararaq yüksək texnologiyalı sənaye inkişafına istiqamətləndirdi.
Heydər Əliyev öz nüfuzundan istifadə edərək bir sıra ümumittifaq əhəmiyyətli iqtisadi layihələrin məhz Azərbaycanda reallaşdırılmasına nail olurdu.
Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə neft sənayesində tənəzzül meyilləri aradan qaldırıldı, neft və qaz ehtiyatlarından səmərəli istifadə edilməsi milli inkişafa mühüm töhfələr bəxş etdi.

Eyni zanmanda, Heydər Əliyev respublikada aqrar sektoru da sənaye əsasında inkişaf etdirməyə, intensiv metodların tətbiqi yolu ilə bir sıra istiqamətlərdə, o cümlədən də gəlirli sahə olan pambıqçılıqda məhsuldarlığın əhəmiyyətli dərəcədə artırılmasına nail oldu. Artıq 1982-ci ildə kənd təsərrüfatı məhsullarının istehsal həcmi ilk dövrlərlə müqayisədə 6 dəfə artmışdı ki, bu da aqrar sektorun inkişafı yönündə həyata keçirilən siyasətin səmərəliliyindən xəbər verirdi.

Onun azərbaycanlı gəncləri keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərməsi uzaqgörənliyin və milli təəssübkeşliyin zirvə nöqtəsi sayıla bilər. Ümumilikdə, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 18 minədək yüksək ixtisaslı mütəxəssis hazırlandı.

Heydər Əliyevin Azərbaycanın sabahı naminə misilsiz fəaliyyəti bütün mühüm istiqamətləri əhatə edirdi. Bu sırada Onun milli mədəniyyətə, ədəbiyyata, Azərbaycan dilinə böyük qayğısını xüsusi qeyd etmək lazımdır. Milli ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli ideologiyamızın funksional vahidi olan milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi strateji addım oldu. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı.

Heydər Əliyevin zamanında məqsədyönlü şəkildə yaratdığı zəngin irs sonralar müstəqil Azərbaycanın iqtisadi və mədəni əsaslarına çevrildi. Bu zəngin irsdən kənarda müstəqil respublikamızın nə iqtisadiyyatını, nə də mədəniyyətini təsəvvür etmək mümkün deyil.

Ümumiyyətlə, Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi 13 il ərzində (1969-1982) respublikamızın regionları da daxil olmaqla bütün şəhərlərində ciddi tarixi inkişaf baş verib. Prezident İlham Əliyev Azərbaycanın sovet hakimiyyəti illərində müstəqil olmasa da, inkişaf etdiyini, ələlxüsus da ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi altında həm iqtisadi, həm də sosial sahədə böyük uğurlar qazandığını məmnunluq hissi ilə diqqətə çatdıraraq vurğulayıb: "70 il Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşayırdı. Baxmayaraq ki, müstəqil deyildik, Azərbaycan xalqı inkişaf edirdi. Xüsusilə 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir, həm iqtisadi, həm sosial sahədə böyük uğurlar qazanmışdır".

# Etimadın növbəti təzahürü

## Müstəqilliyin bərpasında Heydər Əliyevin müstəsna rolu

Bu gün hər bir azərbaycanlı müstəqil Azərbaycanla fəxr edir. Müstəqilliyimizin bərpasında və sonrakı mərhələdə onun qorunmasında
Heydər Əliyevin müstəsna rolunu xüsusi qeyd etmək lazımdır. O, müstəqil respublikamızın Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bildirirdi və cümhuriyyət ideyalarının ölkədə daha geniş şəkildə yayılmasına çalışırdı. Tam qətiyyətlə deyə bilərik ki, Azərbaycanın müstəqilliyə gedən yolunun, qurtuluş tarixinin əsası Heydər Əliyevin səyləri və cəsarəti sayəsində məhz qədim diyarda – Naxçıvanda qoyulub.

Məlumdur ki, keçmiş ittifaq rəhbərliyinin getdikcə artan təzyiqləri ilə üzləşən Heydər Əliyev 1990-cı ildə Moskvadan Bakıya qayıtmaq məcburiyyətində qaldı. Lakin imperiya nökərləri-bəhs olunan dövrdə Azərbaycanın rəhbərliyində təmsil olunan şəxslər Heydər Əliyevin Bakıya qayıdışını kresloları üçün təhlükə hesab edərək Onun paytaxtda qalmasını əngəllədilər. Heydər Əliyev doğulduğu Naxçıvana üz tutdu və burada insanlar Onu böyük sayğı ilə qarşıladılar. Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. O, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra-17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Həmin sessiyada Heydər Əliyevin cəsarəti, milli təəssübkeşliyi, xalqına bağlılığı bütün cəhətləri ilə bir daha özünü büruzə verdi. Sessiyada Onun təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

Bu gün Heydər Əliyevin o dövrdə atdığı bu kimi cəsarətli addımlar kimlərə isə adi görünə bilər. Lakin bu, belə deyil. Bəhs olunan dövr çox ziddiyyətli idi, hadisələrin necə inkişaf edəcəyini proqnozlaşdırmaq çətin idi, hələ Sovet İttifaqı, kommunist partiyası fəaliyyət göstərirdi. Heydər Əliyev isə təhdidlərdən çəkinməyərək respublikamızın gələcək taleyi baxımından müstəsna əhəmiyyət daşıyan qərarların qəbul olunmasına nail oldu. Bir qədər sonra-1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi.

Uzaqgörən Lider olan Heydər Əliyev xalqda müstəqillik uğrunda mübarizə əzmini möhkəmləndirməyə çalışırdı. Onun çağırışı ilə Naxçıvanın 1991-ci il martın 17-də keçmiş Sovet İttifaqının saxlanması ilə bağlı keçirilən referenduma qatılmaması Azərbaycan xalqının müstəqillik ideyalarına inamını artırdı, insanlarda qarşısıalınmaz mübarizə əzmi yaratdı.

## Uzaqgörən Liderin xilaskarlıq missiyası

Azərbaycan xalqı Heydər Əliyevin 1993-cü ilin yayında müstəqilliyimiz üçün yaranan təhlükələri böyük məharətlə sovuşdurmasını və ölkəni yeni inkişaf yoluna çıxarmasını da həmişə minnətdarlıq hissi ilə xatırlayacaq. Bəli, tale elə gətirdi ki, daim Azərbaycanın müstəqilliyini arzulayan, bütün şüurlu fəaliyyətini bu istiqamətdə quran Heydər Əliyev respublikamızın ötən əsrin 90-cı illərinin əvvəllərində ikinci dəfə əldə etdiyi müstəqilliyini qorumaq missiyasını da elə Özü yerinə yetirdi. O dövrün mənzərəsini göz önündə canlandıraq. Xaos, iqtisadi və siyasi böhran, vətəndaş qarşıdurması, torpaqlarımızın işğal altına düşməsi, cəmiyyətdə sabahkı günə ümidsizlik müstəqilliyin ilk illərində ölkəmizi səciyyələndirən əsas cəhətlər idi. Bir tərəfdən, zorakılıq yolu ilə hakimiyyətə gələn AXC- "Müsavat" iqtidarının səriştəsizliyi nəticəsində ölkədə yaranan vətəndaş qarşıdurması, digər tərəfdən isə, Ermənistanın respublikamıza qarşı elan olunmamış müharibə aparması, havadarlarının köməyi ilə torpaqlarımızı işğal etməsi Azərbaycanı, sözün əsl mənasında, ölüm, ya qalım dilemması ilə üz-üzə qoymuşdu. Vəziyyət o qədər ciddi hal almışdı ki, hətta müstəqilliyin itirilməsi təhlükəsi də real idi.

Müstəqilliyimiz, respublikanın gələcəyi üçün həmin böhranlı günlərdə xalq son ümidini sınanmış oğlu Heydər Əliyevə bağlayaraq təkidlə Onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini tələb edirdi. Bütövlükdə, Azərbaycanın inkişaf salnaməsini yazan Heydər Əliyev bu dəfə də xalqının yanında olmağa qərar verərək iyunun 9-da Bakıya gəldi və çətin vəziyyətə düşmüş ölkəyə rəhbərlik etməyə başladı.

Heydər Əliyev ilk dəfə Azərbaycanın Prezidenti vəzifəsinə 1993-cü il 3 oktyabr tarixində seçildi. Onun ilk prezidentlik dövrü kifayət qədər uğurlu oldu. Heydər Əliyevin müdik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr tezliklə müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu. Heydər Əliyev çox böyük səylər göstərərək Ermənistanla atəşkəsin əldə olunmasına, eləcə də "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bununla da müstəqil Azərbaycanın sabitlik və yeni inkişaf erası başladı. Sonrakı mərhələdə isə Onun əsasını qoyduğu böyük işləri Prezident İlham Əliyev uğurla davam etdirərək xalqımızı şanlı Zəfərə qovuşdurdu.

*Mübariz FEYİZLİ*






## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabr ayının 10-da YAP Mingəçevir şəhər təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Mingəçevir şəhər Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.

## Son 20 il ərzində sürətli sosial-iqtisadi inkişaf yolu keçən Azərbaycana daim önəm verilib

# İƏT-ə uğurlu sədrlik...

Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlıq mühüm yer tutur. Məhz bunun nəticəsidir ki, ölkəmiz bir sıra beynəlxalq təşkilatların fəal üzvüdür. Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində də aktiv siyasət həyata keçirir. Bu təşkilatlar arasında İqtisadi Əməkdaşlıq Təşkilatı xüsusi vurğulanmalıdır.

Qeyd edək ki, 1964-cü ildə İran, Pakistan və Türkiyə tərəfindən İnkişaf üçün Regional Əməkdaşlıq və Əməkdaşlıq Təşkilatı adı ilə üç ölkə arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə yaradılan sözügedən qurum 1985-ci ildən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatı adlandırılıb. Qurumun təsis proqramında davamlı iqtisadi artıma nail olunması, üzv dövlətlərin iqtisadi inkişafının sürətləndirilməsi, ticarətin liberallaşdırılması, üzv dövlətlərin iqtisadiyyatının dünya iqtisadiyyatına tədricən inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişaf etdirilməsi, maddi sərvətlərin səmərəli istifadəsi məsələləri qarşıya mühüm vəzifələr kimi qoyulub. Hazırda təşkilata onu yaradan 3 ölkə ilə yanaşı, Mərkəzi Asiya dövlətləri və Əfqanıstan daxildir.

Xatırladaq ki, Azərbaycan İƏT-ə 1992-ci ildə üzv olub. Təşkilata üzv olduqdan sonra Azərbaycan dövlət və hökumət başçısı səviyyəsində İƏT-in sammitində təmsil olunub. Təşkilatın 9-cu və 12-ci zirvə toplantıları müvafiq olaraq 2006-cı və 2012-ci illərdə Bakıda reallaşıb, Bakı bəyannamələri qəbul edilib. Bu il yanvarın 24-də isə Özbəkistanın Daşkənd şəhərində İƏT-in Nazirlər Şurasının 26-cı iclası keçirilib. Toplantıda quruma sədrlik Azərbaycana keçib. Xarici işlər naziri Ceyhun Bayramov bununla bağlı bəyanatla çıxış edib. O, Azərbaycanın İƏT-in 2023-cü il üzrə sədrliyi çərçivəsində prioritet və planlarını açıqlayıb. O, "Yaşıl keçid və qarşılıqlı bağlantılar" mövzusuna həsr olunan Azərbaycan sədrliyinin təşkilatın strategiya və proqramlarının, habelə "İƏT-2025" baxışlarının irəlilədilməsi üçün əhəmiyyət daşıyacağını vurğulayıb.

Nazir, eyni zamanda, ölkəmizin 2023-cü ildə sədrliyi dövründə iqtisadiyyat, enerji, nəqliyyat, turizm və digər sahələrdə bir sıra yüksək səviyyəli görüşlərin keçiriləcəyini də vurğulayıb.

Təşkilatın əvvəlki toplantılarında Mərkəzi Asiya və Cənubi Qafqazdan keçən nəqliyyat marşrutlarının mühüm önəm daşıdığı, bu xüsusda Azərbaycanın regional nəqliyyat və tranzit dəhlizlərinin inkişaf etdirilməsi üçün görülən əhəmiyyətli işlər barədə ətraflı məlumat verilib. Bununla yanaşı, sözügedən istiqamətlərdə əməkdaşlığın gücləndirilməsi məqsədilə Türkiyə, Qazaxıstan və Özbəkistan ilə birgə üçtərəfli platformalar təsis edilib. Azərbaycan, Türkiyə və Qazaxıstan arasında ötən ilin iyun ayında Bakıda keçirilən görüşdə qəbul olunan Bakı Bəyannaməsində nəzərdə tutulan Transxəzər (Orta Dəhliz) Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə müvafiq qərarların icrası vəziyyəti yüksək dəyərləndirilib.

İƏT-in Xarici İşlər Nazirləri Şurasının iclaslarında Şərqi Zəngəzur iqtisadi rayonundan Naxçıvan Muxtar Respublikasına nəqliyyat dəhlizinin yaradılması təşəbbüsünün əhəmiyyəti diqqətə çatdırılıb, bu infrastrukturun bütün bölgə ölkələri arasında əməkdaşlığın inkişafı üçün xüsusi əhəmiyyət daşıyacağı qeyd edilib. Bütün bunlarla bərabər, Zəngəzur dəhlizinin Orta dəhlizin tərkib hissəsi olmaqla həm də Avropadan Asiyaya gedən beynəlxalq marşruta alternativ kimi çıxış edərək regionun inkişafına təkan verəcək bir nəqliyyat xətti, Şimal ilə Cənub, Qərb ilə Şərq nəqliyyat dəhlizlərini birləşdirən önəmli arteriya kimi dəyərləndirilib.

İƏT fəaliyyətində üzv ölkələr arasında son 20 il ərzində sürətli sosial-iqtisadi inkişaf yolu keçən Azərbaycana daim önəm verib. Bu ilin əvvəlində Azərbaycanın təşkilata sədrlik etməsi də bu etimadın göstəricisidir. Oktyabrın 10-da təşkilatın sədri olaraq Azərbaycan İƏT-in Xarici İşlər Nazirləri Şurasının 27-ci iclasına ev sahibliyi edib. Toplantı Qarabağın incisi Şuşa şəhərində keçirilməsi ilə əlamətdardır. Xatırladaq ki, bu il oktyabrın 4-5-də İranın Ərdəbil şəhərində İƏT-ə üzv dövlətlərin turizm nazirlərinin 5-ci iclasında Şuşa şəhəri təşkilatın 2026-cı il üçün turizm paytaxtı seçilib. Həmin toplantıda Azərbaycanı Dövlət Turizm Agentliyinin nümayəndə heyəti təmsil edib. Tədbir çərçivəsində üzv dövlətlər arasında turizm sahəsi üzrə mövcud əməkdaşlıq perspektivlərinə dair geniş müzakirə aparılıb, müvafiq sahə üzrə qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi istiqamətində görüləcək tədbirlər nəzərdən keçirilib. Bütövlükdə, 27-ci iclasın Şuşa şəhərində keçirilməsi Azərbaycan həqiqətlərinin beynəlxalq birliyə çatdırılması baxımından vacib addımdır.

*NARDAR*






Heydər Əliyev əsrinin 23-cü ili

# Azərbaycanın milli dövlət ideologiyasının müəllifi



XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövrdür. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycan xalqının dövlətçilik tarixində mürəkkəb mərhələlər çox olub. Tarix boyu bütün çətinliklərə rəğmən heç bir qüvvə xalqımızın dövlətçilik arzularını, ənənələrini məhv edə bilməmiş, milli, müstəqil respublika yaratmaq istiqamətində səylər qarşısıalınmaz bir proses olaraq yenidən baş vermişdir. Azərbaycan xalqı keçmişini unutmayıb bu günü ilə qürur duyan və gələcəyə inamla addımlayan xalq olaraq hər zaman tarixin sərt sınaqlarından alnı-açıq çıxaraq yenilməzliyini, məğrurluğunu dünyaya nümayiş etdirib.

1991-ci il 18 oktyabr tarixində dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycanın ilk illərdə yaşadıqları tarixinizin qaranlıq səhifələri kimi vərəqlənir. Azərbaycan xalqı müstəqilliyin sevincini yalnız 1993-cü ildən sonra yaşamağa başladı. Müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizdə daxili çəkişmələr, Ermənistanın təcavüzü, hakimiyyətdə olan ünsürlərin şəxsi ambisiyalarına xidmət edən siyasətin fəsadları böyük çətinliklər yaradaraq Azərbaycanın taleyini sual altına almışdı. Baş verən proseslər lider amilinin hər bir ölkənin həyatında oynadığı rolun aydın mənzərəsini yaratdı. Ölkəsini, xalqını düşünən Lider hər zaman irəliyə, dövlətinin gələcəyinə doğru addımlayar, xalqı ətrafında sıx birləşdirər. Lakin o illərdə ölkəmizə rəhbərlik edən ünsürləri Azərbaycan dövlətinin, xalqının gələcəyi deyil, özlərinin şəxsi maraqları düşündürürdü. Azərbaycan müstəqilliyini itirmək, bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsini yaşayırdı. Xalqın sabaha ümidi yox idi.

Ümummilli Lider Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərini düzgün dəyərləndirmək üçün ilk növbədə Onun hakimiyyətə qayıdışı zamanı mövcud vəziyyəti yada salmaq kifayətdir. Məhz dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı, zəngin idarəçilik təcrübəsindən bəhrələnərək həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasət nəticəsində Azərbaycan düşdüyü ağır vəziyyətdən xilas oldu. Ulu Öndər Azərbaycanın müstəqiliyinin möhkəmləndirilməsində, bir dövlət olaraq beynəlxalq aləmdə nüfuzunun artmasında, iqtisadi və siyasi müstəqilliyinin təmin edilməsində əsas aparıcı tarixi şəxsiyyət idi. Sabitliyi hər bir inkişafın əsası kimi önə çəkən Ümummilli Lider Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan qısa zamanda sabitlik diyarına çevrildi. Bu reallıq hər kəsə məlumdur ki, Azərbaycan yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara görə daim dünyanın diqqətində olub. Müstəqilliyimizin bərpasının ilk illərində ölkədə ictimai-siyasi durumun gərginliyi Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin, şirkətlərin tərəddüdlərinə səbəb olmuşdu. Onlar yatıracaqları investisiyaların təhlükəsizliyinə əmin deyildilər. Ümummilli Liderin hakimiyyətə qayıdışı ilə Azərbaycanda yaradılan sabitlik bu tərəddüdlərin aradan qalxmasını şərtləndirdi. Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayı artdı. Azərbaycanın qüdrətli, zəngin olmasını və dünyaya Günəş kimi doğmasını arzulayan Ulu Öndər Heydər Əliyevin hər bir addımının əsasında xalqına, dövlətinə bağlılığı, onun gələcəyi üçün çalışması dayanırdı. Müasir müstəqil Azərbaycanın Ümummilli Liderin şah əsəri kimi nüfuz qazanması da özündə bütün bu reallıqları ehtiva edir. O, öz Vətənini sevməklə, bəşəri ideyaların həyata keçirilməsini arzu etməklə bilirdi ki, cəsarətlilik qətiyyət, özünə inam bütün qələbələrin başlanğıcıdır. Dahi şəxsiyyətin hakimiyyətinin hər iki dövrü dövlətinə, xalqına bağlılığ, xidmət nümunəsidir. Qardaş Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəlin vurğuladığı kimi, Azərbaycan xalqının bəxti onda gətirib ki, onun Heydər Əliyev kimi lideri var. Şəxsi həyatı, uzaqgörən, müdrik siyasəti ilə Azərbaycanın qərinədən artıq tarixini salnaməmizə yazan Ulu Öndər haqqında deyilən "Heydər Əliyev kimi dahilər tarixdə bir dəfə yetişir" kimi sözləri müdrik bir insanın şərəfli ömür yoluna verilən dəyərdir.

Ümummilli Lider Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" çağırışı hər birimizin həyat amalına çevrilib. Dahi şəxsiyyət bu çağırışı da etdi ki, Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır. Azərbaycanın müstəqilliyini, suverenliyini daimi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıdan bir ideya-azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşmək tələb olunur. Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməli, azərbaycançılığı- Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini inkişaf etdirməlidir.

Ümummilli Lider Heydər Əliyev hər bir addımında dövlət, xalq, Vətən sevgisini nümayiş etdirirdi. 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış, xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edəndə də, Dağlıq Qarabağda yaranmış münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etirazını bildirəndə də Ona güc, qüvvət verən xalqına bağlılığı, torpaq, Vətən sevgisi idi. Dövlət başçısı İlham Əliyev 1990-cı il 21 yanvar tarixində Ümummilli Liderin Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlişini belə xarakterizə edir: "Təbii ki, bu, daim təqibə məruz qalan adam üçün çox təhlükəli addım idi. Lakin atam həmişə prinsipial idi və əsla tərəddüd etmədən baş verənlərə qarşı etiraz etdi. Biz, onun ailə üzvləri də heç bir şübhə və qorxu hissi keçirmədik. Həmin ağır günlərdə bizim bircə arzumuz vardı: öz xalqımızla birlikdə olmaq, onu dəstəkləmək. Bir il sonra bu arzu baş tutdu. Doqquz illik fasilədən sonra atam öz Vətəninə, Naxçıvana qayıtdı. Onu buraya iki arzu gətirmişdi. Birincisi, şəxsi arzusu, ona rahatlıq verməyən vətəndaş şərəfi. Azərbaycan özünün ən ağır dövrünü yaşayırdı. Onun keçmiş rəhbəri isə çox-çox uzaqlarda idi. İkincisi, atam Azərbaycana xalqın istəyi ilə gəlmişdi. Əgər onun hakimiyyətə birinci gəlişi respublikanın milli dirçəlişinin əsasını qoymuşdusa, ikinci gəlişi haqlı olaraq Milli Qurtuluş Günü kimi qeyd olundu."

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi dövlətçiliyimizin atributu olan himn, üçrəngli bayraq və gerbimizin bərpasını vətəndaşlıq borcu adlandıranda da böyük qətiyyət göstərərək Azərbaycan naminə canından belə keçməyə hər an hazır olduğunu bildirmişdi.

Ümummilli Lider Heydər Əliyev üçün ən böyük sevinc xalq etimadı, Azərbaycanın müstəqilliyi, azadlığı, suverenliyi idi. Qeyd etdiyimiz kimi, Ulu Öndər 1993-cü ildə hakimiyyətə qayıdışı, siyasi bacarığı, müdrikliyi ilə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi pərakəndəlikdən xilas etdi və doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər edib onun qəlbində sabaha inam hissi yaratmağı bacardı.

Ulu Öndər Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlayır. Öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümüdür. Geniş bilik və dərin təfəkkür sahibi olan Ümummilli Lider düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Onun milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Ulu Öndərin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur. Dahi şəxsiyyət Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Artıq tarixə qovuşan Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir.

Dahi şəxsiyyətin xidmətləri sırasında hazırda cəmiyyətin avanqard qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının yaradılması xüsusi qeyd edilir. Onun partiyanın yaradılması ilə bağlı xalqın böyük əksəriyyətinin istəyini özündə ehtiva edən 91 nəfər ziyalının müraciətinə cavabında da dövlətinə, xalqına bağlılığı aydın ifadəsini tapmışdır. YAP hər zaman qəbul etdiyi qərarları ilə Azərbaycan dövlətinin güclənməsinə, xalqımızın rifahının yüksəlməsinə töhfələr verir. "Güclü dövlət, yüksək rifah" prinsipi partiyanın fəaliyyətinin əsasıdır.

Ulu Öndər Heydər Əliyevin istər hakimiyyətinin birinci, istərsə də ikinci dövründə xidmətlərinin miqyası Onun daim qürurla qeyd etdiyi bu fikirlərini xatırlatmağa çağırışdır: "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycanın vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam". Dahi şəxsiyyət düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı görmək istədiyi ən yüksək səviyyəyə yüksəltmək üçün möhkəm təməl formalaşdırdı.

Ümummilli Liderin 2003-cü ildə xalqa tarixi müraciəti də özündə dövlətə, xalqa sevgisini əks etdirir. Azərbaycanın gələcəyini düşünən, yaradılan möhkəm təməl üzərində daha yüksək zirvələri fəth etməsini istəyən Ulu Öndər Heydər Əliyev "Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız Sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib" fikirlərinin davamı olaraq bildirmişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

2003-cü il prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev andiçmə mərasimində bu vədini verdi: "Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsəriniz olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik."

Cənab İlham Əliyev atdığı hər addımında Heydər Əliyev siyasətinə sadiqliyini nümayiş etdirir. Uğurlu siyasəti, təkmil islahatları ilə Azərbaycana davamlı uğurlar qazandıran Prezident İlham Əliyev tarixi Zəfərimizin müəllifi kimi nüfuz qazandı. O, Ulu Öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətindən, həmçinin özünün Ümummilli Liderin qarşısında verdiyi vədlərdən 17 il sonra, 2020-ci ildə 44 günlük Vətən müharibəsinin hər gününü xalqımıza qələbə sevincini yaşatmaqla noyabrın 8-də Qarabağımızın tacı Şuşanın işğaldan azad olması müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən keçirdiyi xoşbəxtlik hissini belə ifadə etdi: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Ümummilli Lider Heydər Əliyevin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirdi. Rəşadətli Ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dünya hərb tarixinə yeni səhifə yazdı. Şanlı Qələbəmizi şərtləndirən amillər sırasında da xalqımızın torpaq, Vətən sevgisi xüsusi qeyd edilir. Ümummilli Lider Heydər Əliyev bu çağırışı etmişdir ki, Azərbaycanın gələcəyi indiki gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır. Bu fikirlərin davamı olaraq möhtərəm Prezidentimiz İlham Əliyev bildirir ki, gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunmalıdır.

Azərbaycanın hər bir uğurunda torpaq, xalq sevgisi öndə dayanır. Cənab İlham Əliyevin hazırda Azərbaycan xalqının Lideri kimi əsas missiyası dövlətin və xalqın gücü ilə düşmənin dağıtdığı işğaldan azad edilən şəhər və kəndlərimizin bərpasını, yenidən qurulmasını uğurla başa çatdırmaq, soydaşlarımızın bu torpaqlara qayıdışını təmin etmək, Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanı yeni hədəflərə doğru inamla aparmaqdır. Bu hədəflər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapıb. Prezident İlham Əliyevin böyük uzaqgörənliklə qurduğu strategiya Azərbaycan dövlətini daha qüdrətli, Azərbaycan xalqını daha güclü, Azərbaycan bayrağını daha uca etməyə hədəflənib.



*Səfə Ağayev*
*YAP İmişli rayon təşkilatının sədri*

# Böyük Qayıdış sürətlə davam edir







## Füzuliyə daha 21 ailə köçüb

*Günel ABBAS*

İşğaldan azad olunmuş ərazilərdə yeni infrastruktur qurulur və bu ərazilərə Böyük Qayıdış prosesi sürətlə davam edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlər 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıdırlar.

Yeri gəlmişkən, oktyabrın 10-da növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 21 ailə - 88 nəfər köçürülüb.

Abadlaşan və daha da gözəlləşən Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsinə böyük ehtiram duyduqlarını dilə gətiriblər.

**35 yaşında köçkün düşdüyüm yurduma 65 yaşında qayıdıram**

Füzuli rayon sakini Raifə Qasımovanın sözlərinə görə, doğma evlərinə qayıdacağı günü həmişə səbirsizliklə gözləyib və buna inanıb. Bu inamın reallaşmasından məmnunluğunu dilə gətirən R.Qasımova ibtidai sinif müəllimi olduğunu deyib. Füzuli sakini bildirib ki, uğrunda canlar fəda edilən, şəhidlərimizin qanı ilə yoğrulan torpaqlarımız indi azad nəfəs alır və doğma sakinlərini qoyununa alır.

"Biz füzulililər həmişə dövlətimizə, Prezidentimizə, Müzəffər Ali Baş Komandana arxalanmışıq və arxalanırıq. Bilirdik ki, son nəticədə istədiyimizə nail olacağıq, ərazi bütövlüyümüz bərpa ediləcək. Şükürlər olsun ki, həmin günlər gəlib çatdı. Allah şəhidlərimizə rəhmət eləsin", - deyə Füzuli sakini diqqətə çatdırıb.

Füzuli şəhərinə köç edən keçmiş məcburi köçkün Rəşid Abbasov deyib ki, sevinə-sevinə öz torpaqlarına gedirlər: "35 yaşında köçkün düşdüyüm yurduma 65 yaşında qayıdıram".

Füzuli sakini Azərbaycan Prezidenti İlham Əliyevə, torpaqlarımızın azadlığı uğrunda döyüşən qəhrəman Vətən oğullarına da təşəkkürünü bildirib: "Öz yurduma qayıdırıq. Ali Baş Komandanımızın rəhbərliyi, şəhidlərimizin, qazilərimizin qəhrəmanlığı nəticəsində torpaqlarımız azad olundu, bizə də bu günləri görmək nəsib oldu".

Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Füzuli şəhərində 165 ailənin, yəni 602 nəfərin daimi məskunlaşması təmin ediləcək.

# Ermənistan yenə “şikayətçi” obrazında...

## İrəvan dəfələrlə rədd cavabı aldığı BƏM-dən niyə əl çəkmir?

Xəbər verildiyi kimi, Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) Ermənistanın müraciəti üzrə dinləmələrə start verib. İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyaya uyğun olaraq (Ermənistan Azərbaycana qarşı) Məhkəmənin yerləşdiyi Haaqadakı Sülh Sarayında keçirilməsinə başlanılan dinləmələr Ermənistanın müvəqqəti tədbirlərin görülməsi ilə bağlı müraciətinə həsr olunur. Xatırladaq ki, hər iki tərəfin öz şifahi arqumentlərini təqdim edəcəyi bu dinləmələrlə bağlı Ermənistan sentyabrın 28-də BƏM-ə müraciət edib.

Bu arada Ermənistanın nümayəndələri də Beynəlxalq Ədalət Məhkəməsində “Ermənistan Azərbaycana qarşı” işi üzrə iclasda yer alırlar. Erməni mediasının xəbərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyan “nümayəndə heyəti” ilə bağlı qərar da imzalayıbmış. Qərara əsasən, Yeğişe Kirakosyan, Liparit Drmeyan və Aram Aramyanın oktyabrın 9-13-də Niderlanda ezam olunublar. Ermənistanın beynəlxalq hüquq məsələləri üzrə nümayəndəsi Yeğişe Kirakosyan, beynəlxalq hüquq məsələləri üzrə nümayəndənin aparatının rəhbəri Liparit Drmeyan və dövlətlərarası mübahisələr üzrə idarənin müdiri Aram Aramyan BMT-nin Haaqadakı Beynəlxalq Ədalət Məhkəməsinin iclasında rəsmi İrəvanı təmsil edirlər.

### Bu, ilk “müraciət” deyil...

Ermənistanın bu kimi əsassız iddialarla BƏM-ə müraciət etməsi isə ilk fakt deyil - bir neçə ay öncə Məhkəmə Azərbaycanın Ermənistanla sərhəddə Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə bağlı Ermənistanın vəsatətini rədd etmişdi. Xatırladaq ki, Ermənistan 2023-cü il mayın 12-də Laçın sərhəd-buraxılış məntəqəsinin qanunsuz olması ilə bağlı vəsatətlə məhkəməyə müraciət etmişdi. Bundan öncə isə, ötən ilin oktyabrında Beynəlxalq Ədalət Məhkəməsi “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanın tətbiqi ilə bağlı müvəqqəti tədbirləri əsas gətirərək Ermənistanın 7 dekabr 2021-ci il tarixli məhkəmə qərarına dəyişiklik edilməsi barədə tələbini rədd etmişdi. Beləliklə Ermənistanın qanunsuz, beynəlxalq hüquqa zidd tələblərinin rədd edilməsi paralel olaraq bu dövlətin qeyri-qanuni əməllərinin ifşasına da zəmin yaradır. Başqa sözlə, qanunsuzluq axtarışında olan, hətta beynəlxalq qurumları belə qanunsuz iddiaları ilə bezdirən Ermənistan bu yolla ötən 30 ildə imza atdığı vəhşilikləri, barbarlığı, cinayətləri pərdələməyə çalışır. İşğal altında saxladığı Azərbaycan torpaqlarında törətdiyi qətliamlar, mədəni, dini, tarixi abidələrin dağıdılması, eyni zamanda, ölkəsi daxilində apardığı irqi ayrı-seçkilik təbliğatı rəsmi İrəvanın əsl simasını üzə çıxarır - bu dövlət birmənalı şəkildə beynəlxalq konvensiyaların əleyhinə addımları ilə seçilir. Xocalı soyqırımı və bu kimi bir sıra bəşəri cinayətlərə imza atan Ermənistan rejimi müharibədən sonrakı dövrdə törətdiyi cinayətlərin üstünün açılmaması üçün belə vəsatətlər qaldırır - amma, bu heç bir işə yaramır. Azərbaycanın apardığı hücum diplomatiyası Ermənistanın əsl niyyətlərinin beynəlxalq aləmdə də ifşa olunmasına şərait yaradır.



24 saatlıq antiterror tədbirləri Azərbaycanın beynəlxalq hüquqa əsaslanan müstəsna hüququ idi ki, ölkəmiz bu vasitə ilə özünün suverenliyini tam şəkildə bərpa etmiş oldu. Həmin ərazilərdə yaşayan erməni sakinlərin zərər görməməsi üçün isə bütün zəruri önləyici tədbirlər görülmüş, erməni əhalinin təhlükəsizliyi təmin edilmişdi. Antiterror tədbirləri başlamamışdan qabaq Azərbaycan Ordusunun yaydığı bəyanatda da vurğulanırdı ki, mülki sakinlərə legitim hərbi hədəflərdən uzaq dayanmaları bildirilib. Eyni zamanda, antiterror tədbirlərindən sonra regiona gələn BMT - nin missiyasının bəyanatında da vurğulanırdı ki, Qarabağdan hər hansı bir sakin məcburən çıxarılmayıb - tərk edənlər öz arzusu ilə Ermənistana keçir. Bununla yanaşı, bölgədə hər hansı bir infrastruktur sıradan çıxarılmayıb, mülki əhali hədəfə alınmayıb.

Beləliklə, Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsinə müraciətləri birmənalı şəkildə iflasa məhkumdur. Əksinə, Ermənistan ötən 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlamaqla yanaşı, həmin ərazilərdə bütün infrastrukturu, o cümlədən yüzlərlə yaşayış məntəqəsini Yer üzündən silib. O ərazilərdə yaşayan insanlar isə qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü.

### Ermənistanın haqsız iddiaları..

Bütün bunlar isə Ermənistanın işğalçı niyyəti ilə yanaşı, etnik təmizləmə siyasəti apardığını deməyə əsas verir - bu ölkə işğal etdiyi ərazilərin mədəni - dini abidələrini belə özününküləşdirməyə çalışıb. Bu cür çirkin siyasətə imza atan bir dövlətin Beynəlxalq Ədalət Məhkəməsinə hər hansı bir iddia ilə müraciət etməsi isə absurddur.

### BƏM-in qərarlarını icra etmir...

Ermənistan həm də bu Məhkəmənin qərarlarını icra etməkdən boyun qaçırır. Bütün zamanlarda olduğu kimi, cəzasızlıq mühitindən sui-istifadə edən Ermənistan BƏM-ə münasibətdə də özünü qeyri-adekvat aparıb. Məsələn, 2021-ci ilin oktyabrında Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən Ermənistana qarşı bir vəsatət təmin olunmuşdu - Azərbaycan tərəfindən irəli sürülən həmin vəsatət Ermənistanda azərbaycanlılara qarşı etnik nifrəti təşviq edən qruplaşmaların fəaliyyətinin dayandırılması ilə bağlı idi və Azərbaycanın istəyi ilə bu vəsatət təmin edilmişdi. Ermənistan tərəfi bugünədək həmin qərarı yerinə yetirməyib. Ədalət Məhkəməsinin qərarını yerinə yetirməyən bir dövlət hansı üzlə yenidən bu quruma iddia təqdim edir? Bu ölkə özü Beynəlxalq Ədalət Məhkəməsinin qərarına hörmətsiz yanaşdığı halda, qurumu ittiham etməyə çalışır. Bu kimi hallar bir daha Ermənistanın əsl simasını üzə çıxarır.

***P.İSMAYILOV***

# Rediküllər xora qoşulublar...

## Əli Kərimli və “dəstəsinin” yeni “direktivi”

Antimilli redikül müxalifətin bir mənbədən “idarə olunması” faktı növbəti dəfə öz təsdiqini tapır. Belə ki, Azərbaycana qarşı olan ermənipərəst qüvvələrin manipulyasiya vasitəsinə çevirməyə çalışdıqları “mövzunu” redikül müxalifətə “pıçıldaması” bəs edir ki, onlar da yalan, şər, böhtana “istinad” edərək ölkəmizin maraqlarını, uğurlarını hədəfə alsınlar. Əsasən sosial şəbəkələrdə bu kimi birtərəfli “şərhlərin”, “postların” şahidi oluruq. Həmin direktivlərin məhz ermənipərəst mövqelər tərəfindən redikül müxalifətə verilməsi faktını isə onlar özləri “ifşa edirlər” - səslənən fikirlərin, yazılan “şərh” və ya “postların” monotonluğu, hətta eyni qəlibdən çıxması bunu təsdiqləyir.

Əli Kərimli və “dəstəsi”nin sosial şəbəkələrdəki son “hərəkətləri” də məhz bu ssenari ilə inkişaf etməkdədir. AXCP sədrinin özü, “müavinləri”, “yan-yörəsi”, “şərikləri” eyni məsələ ilə bağlı manipulyativ “mövqe” sərgiləyiblər. Onların hədəfi ölkəmizin ərazisində müvəqqəti yerləşən Rusiya sülhməramlı kontingenti ilə bağlıdır.

Ə.Kərimlinin məsələni öz aləmində spekulyasiya mövzusuna çevirməyə çalışması ortadadır - hətta bununla bağlı pafoslu “çağırış” belə edilir. O iddia edir ki, Rusiya rəsmisi bununla bağlı bildirib ki, “Rusiya sülhməramlılarının Qarabağda qalma məsələsi Moskva və Bakı tərəfindən həll olunacaq”.

Bu şəxsin təfəkküründəki qüsur birinci addımdan özünü büruzə verir - 2020-ci ildə bağlanan üçtərəfli Bəyanata əsasən sülhməramlıların taleyi ilə bağlı Ermənistanın rəyi də “soruşulurdusa”, artıq bu yoxdur - yalnız Azərbaycan bu məsələdə rəy bildirə bilər. Bunun açması isə odur ki, Azərbaycanın yaratdığı yeni siyasi reallıqlarda artıq Ermənistanın rəyi əsas götürülmür - Azərbaycan özünün suverenliyini tam şəkildə bərpa edib. Sülhməramlıların fəaliyyəti və aqibəti isə həmin bəyanatda tam şəkildə əks olunub.

Ə.Kərimlinin “siyasi savadsızlığı” xəyanətkar bir hədəfə istiqamətlənib. Bu şəxs ətrafındakı barmaq sayı adamla birgə guya Azərbaycana qarşı hər hansı bir siyasi “üstünlük”qazanıldığını sübuta yetirmək istəyir - amma yenə də biabır olur. Axı, məsələnin mahiyyətində o durur ki, artıq Ermənistan bu məsələdə hər hansı bir söz haqqına malik deyil. Azərbaycan 24 saatlıq antiterror tədbirləri ilə bütövlükdə prosesə yeni bir istiqamət qazandırıb. Bu, artıq regionun liderini, müzakirələrin ünvanını açıq şəkildə hər kəsə bəlli edir.

Ə.Kərimlinin bu uğurları həzm etməməsi təbiidir - axı, onun maliyyələşdirilməsində Fransa “təmsilçiliyinin” rolu danılmazdır. Məhz Fransadakı erməni lobbisinə xidmət edən “mühacir kassirləri” Ə.Kərimli və dəstəsinin hərəkət qrafikini, istiqamətini, şərhlərin mahiyyətini və xarakterini təyin edir. Yəqin ki, bu dəfə Ə.Kərimli və “dəstəsi” Azərbaycanın yaratdığı regional əməkdaşlıq mənzərəsinə necə xələl gətirməklə bağlı “direktiv” alıblar. Onlar bölgədə sülhün və təhlükəsizliyin bərqərar olmasını həzm edə bilməyənlərdir - Azərbaycanın regional tənzimləyici rolunu üstlənməsi “Fransa və xidmətçilərini” qane edə bilməz. Əli Kərimlinin “dəstəsi” də bu məsələdə öz payını alıb - belə olmasaydı, Ə.Kərimlinin maliyyəsinin payçıları da “ermənipərəst xora” qoşulmazdı...

***MƏNSUR***

# İsrail-Fələstin müharibəsi: görünən və görünməyən tərəflər

İsraillə Fələstin arasında gərginlik davam etməkdədir. Məlum olduğu kimi, İsrailə qəfil silahlı hücum aktından sonra Təl-Əviv HƏMAS-a müharibə elan edib.

Hazırda Fələstin rəhbərliyi yaranmış böhrandan çıxış yolları axtarır. Muxtariyyətin lideri Mahmud Abbas bir sıra ərəb ölkələrinin liderlərinə zəng vuraraq, onlardan İsraili dayandırmaq üçün hərəkətə keçmələrini xahiş edib.

Fələstinin “WAFA” xəbər agentliyinin yaydığı məlumata görə, Mahmud Abbas İordaniya kralı II Abdullah, Misir prezidenti Əbdülfəttah əs-Sisi və Qətər əmiri Şeyx Təmim bin Həməd əl-Tani ilə telefonla danışıb. Hər üç ölkə rəhbəri Fələstin liderini “davam edən eskalasiyanı dayandırmaq üçün bütün beynəlxalq və regional tərəflərlə əlaqələr” qurduğuna əmin edib.

### Qəzzanın qəzası

İsraillə HƏMAS arasında müharibə artıq yeni mərhələyə daxil olur. İsrail Silahlı Qüvvələri getdikcə HƏMAS silahlılarını bölgədən sıxışdırıb çıxarır və cəbhəni düşmən ərazisinə keçirir. İsrailin Baş naziri Benyamin Netanyahunun Qəzza zolağındakı bütün terror yuvalarını darmadağın edəcəkləri barədə sərt çıxışı Fələstin, eləcə də bütün ərəb mediasını “bəzəməkdədir”. İsrail hökuməti terror yuvalarını dağıtmaq niyyətini bəyan etdikdən sonra Fələstin rəhbərliyi qonşu dövlətlərdən İsraili dayandırmaq üçün imkanlarını işə salmalarını xahiş edib.

İsrail tərəfindən Qəzza zolağının blokadası oktyabrın 9-da başlayıb. Bu qərarı ölkənin Müdafiə Nazirliyi verib. “Mən Qəzza zolağının tam mühasirəyə alınmasını əmr etdim. Burada nə elektrik, nə yemək, nə yanacaq - heç bir şey olmayacaq”, - deyə İsrailin müdafiə naziri Yoav Qalant mətbuata açıqlamasında bildirib. Müdafiə Nazirliyi Qəzza zolağı ilə sərhəddə İsrailə aid bütün yaşayış məntəqələrinin tam nəzarət altına alındığını elan edib. İsrail ərazisinə qəfil hücum təşkil edən HƏMAS isə, görünür, qısa müddətə bu ərazilərdə möhkəmlənməyə fürsət tapa bilməyib.

Hazırda tərəflər arasında quru döyüşləri davam edir. Eyni zamanda hər iki tərəf bir-birinin üzərinə raket və dron yağdırır. Oktyabrın 8-də İsrail rəsmən müharibənin başlandığını elan edib. Təl-Əviv bu antiterror savaşını “Dəmir qılınclar” adlandırıb. “Financial Times” qəzeti yazır ki, İsrail hökuməti Qəzza zolağını terror qruplaşmalarından tam təmizləmək üçün onlara daha bir neçə günün lazım olacağını bildirib.

HƏMAS-ın İsraildə törətdiyi terror aktı, əsir götürülən mülki əhali və uşaqlarla qeyri-insani davranışı ölkəni və bütün dünyanı dəhşətə gətirib. “Kan” televiziyası terror hücumu nəticəsində ölənlərin 800 nəfəri keçdiyini bildirib. Bu siyahıya həm hərbçilər, həm də mülki şəxslər daxildir. Terrorçular İsrail ərazisində hərbçilərlə mülki əhali arasında fərq qoymadan qırğın törədiblər.

“The Jerusalem Post” yazır ki, minlərlə xarici qonağın iştirak etdiyi elektron musiqi festivalının keçirildiyi Reim meşəsində ən azı 260 cəsəd tapılıb. HƏMAS silahlıları festivalın keçirildiyi məkana daxil olaraq tədbir iştirakçılarını kütləvi şəkildə atəşə tutublar.

İsrail xalqının yaşadığı bu dəhşəti biz azərbaycanlılar bəlkə də hər kəsdən daha yaxşı anlayırıq. Dəfələrlə erməni terroruna məruz qalan bir xalq kimi bu cür xain hücumun, günahsız insanların öldürülməsinin nə demək olduğu bizə çox yaxşı bəllidir. İsrail tarixində bu miqyasda sonuncu belə hadisə 2006-cı ilin yayında İkinci Livan Müharibəsi zamanı baş verib. Həmin münaqişədə 165 İsrail vətəndaşı (121 hərbçi, 44 mülki şəxs) həlak olub. Məhz bu faciədən sonra İsrailin o vaxtkı baş naziri Ehud Olmert istefa vermişdi.

### Terrora qarşı antiterror

Faciə insanları birləşdirir, müharibə sıravi şəxsləri də səfərbər edir. Hazırda İsraildə bütün qüvvələr bir məqsəd uğrunda toparlanıb. Məhkəmə islahatlarına qarşı etiraz nümayişləri dayandırılıb, aksiya iştirakçıları orduya yazılır, terror qurbanlarını xilas etmək, həlak olanların nəşini axtarmaq üçün könüllü dəstələr yaradırlar.

Fələstin tərəfinin məlumatına görə, İsraillə müqayisədə onların itkiləri daha azdır. İsrailin həmlələri nəticəsində 560 nəfərə yaxın hərbçinin həlak olduğu bildirilir.

“Biz bu qara günün, İsrailin, vətəndaşlarımızın qisasını alacağıq. Bu pis şəhərdə HƏMAS-ın gizləndiyi bütün yerləri xarabalığa çevirəcəyik”, - deyən Netanyahunun şənbə günü etdiyi çıxış ərəb mediasında manşetlərdən düşmür.






Bu arada BMT-nin Yaxın Şərqdəki İşlər və Fələstinli Qaçqınlara Yardım üzrə Agentliyi (UNRWA) bazar ertəsinə qədər 120 min fələstinlinin öz evini tərk etdiyini bildirib. Qəzza zolağında 3 milyona yaxın insanın yaşadığını nəzərə alsaq, bu, elə də böyük rəqəm deyil. Yaxın Şərq üzrə ekspertlərin fikrincə, Qəzza əhalisinin sadəcə getməyə yerləri yoxdur. İsrail hökuməti isə öncədən mülki əhaliyə həmin ərazilərdə antiterror əməliyyatı aparacağı ilə bağlı dəfələrlə xəbərdarlıq edib.

### Fələstinə yardımlar kəsilir

İsrailin Qəzza zolağını blokadaya almasından sonra yerli əhalinin terrorçu qruplaşmalara bu və ya digər şəkildə yardım etməməsi üçün Avropa İttifaqı tərəfindən onlara ayrılan yardımlara son qoyulması fikrinə gəlinib. Avropa Komissiyasının səlahiyyətli nümayəndəsi Oliver Vargeli bildirib ki, İsraildə baş vermiş amansız terror aktına görə fələstinlilərə verilən yardımlar dayandırılacaq: “Fələstinin ən böyük donoru olan Avropa Komissiyası bu ölkə üçün nəzərdə tutulmuş 691 milyon avroluq yardım paketini yenidən nəzərdən keçirəcək. Hələliksə bütün ödənişlər dayandırılacaq, layihələrə yenidən baxılacaq. Bütün təkliflər rəsmi qərarlar qəbul edilənə qədər təxirə salınır”.

Avropa Komissiyasının nümayəndəsi İsrail xalqına qarşı törədilən terror aktını “görünməmiş vəhşilik” adlandıraraq, nifrət, zorakılıq və terroru hər hansı formada qidalandırmağın doğru olmadığını söyləyib. Vargelinin bu fikirləri beynəlxalq ictimaiyyət üçün gözlənilməz olub. Çünki Avropa Komissiyasının brifinqi zamanı qurum rəsmiləri HƏMAS terrorçuları ilə Fələstin xalqı arasında ayırıcı xətt çəkməyə çalışaraq, onlara yardım verilməsini davam etdirmək qənaətində olduqlarını bildirmişdilər. Hətta brifinqdən bir neçə saat sonra Avropanın humanitar yardım üzrə komissarı Janez Lenarçiç fələstinlilər üçün nəzərdə tutulan yardımın “lazım olan müddətdə davam etdiriləcəyi” barədə açıqlama da vermişdi.

Avropa Birliyində Fələstinə ən çox yardım edən ölkə Almaniyadır. Hazırkı situasiyada Almaniya hökuməti bu yardımları davam etdirib-etdirməyəcəyi ilə bağlı tərəddüd edir, müzakirələr aparır.

Avstriyanın xarici işlər naziri Aleksandr Şallenberq də İsraildə törədilən terror aktına görə Fələstin ərazilərinin inkişafı üçün nəzərdə tutulan bütün növ yardımları donduracaqlarını açıqlayıb. Söhbət təqribən 19 milyon avrodan, təxminən 80 milyon İsrail şekelindən gedir.

Əlbəttə, belə bir vaxtda Avropadan gələn yardımın kəsilməsi Fələstin üçün əməlli-başlı çətinlik yaradacaq. Bir məsələ də var ki, Fələstin varlı ərəb ölkələrindən də yardımlar ala bilər. Ancaq hələlik körfəz ölkələri tərəfindən fələstinlilər üçün yardım proqramlarının tərtib edildiyi barədə məlumat verilmir. Bu ölkələrin bəzilərində - Tunisdə və Yəməndə hələlik Fələstinə sadəcə sözdə dəstək vermək nümunəsi göstərilir.

### İkinci cəbhə də açılıb

Bu arada “Hizbullah” da İsraili hədələyib. Təşkilatın nümayəndəsi indiki vaxtda İsrailə qarşı hər hansı hücum təşkil etmədiklərini, lakin “yaxın gələcəkdə bu cür hücumları həyata keçirəcəklərini” bildirib. “İsrail artıq yenilməz qüvvə deyil. Onları məğlub etmək olar”, - deyə “Əl-Cəzirə” telekanalı təşkilatın adı açıqlanmayan nümayəndəsindən sitat gətirib. İsrail Müdafiə Nazirliyinin mətbuat xidməti isə “Hizbullah”ın İsrail sərhədlərini atəşə tutduğu barədə məlumat yayıb. Nazirlikdən bildirilib ki, “Hizbullah”ın hücumlarına cavab olaraq İsrail helikopterləri qruplaşmanın Livandakı istehkamlarına hücum çəkib. Beləliklə, artıq müharibənin ikinci cəbhəsi də açılıb.

***Murad Köhnəqala***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## 11 oktyabr Beynəlxalq Qızlar Günüdür



# Onlar bizə ən gözəl hədiyyədir

Qızlarımızın təhsilə gəlməsinin Şərqin ilk mesenatı Hacı Zeynalabdin Tağıyevin böyük rolunun olduğunu hamı bilir. Belə ki, ötən əsrin əvvəllərində qızlarımızın savadsızlığı ucbatından ailələrin dayaqları zəifləyir, qızlar cəmiyyətdə mövqe tuta bilmirdilər. Həmin dövrlərdə xarici ölkələrdə oxumağa üz tutan azərbaycanlı oğlanlar bizim qızları bəyənməyib əcnəbi qadınlarla ailə qururdular ki, bunun da millət üçün faydası olmurdu. Belə bir cəmiyyətdə qızlara məktəb açmağın nə demək olduğunu yaxşı bilən Hacı Zeynalabdin Tağıyev bu barədə müdrikcəsinə düşünürdü. "Bunu mən etməsəm, kim edəcək, bu biçarə millətin gələcəyin mən düşünməyim, o düşünməsin, kim düşünsün? Alacağım zərbə nə qədər ağır olsa da, mən bu işə başlamalıyam" - deyib məqsədinə doğru gedirdi.



Şərq dünyasının ilk mesenatı Tağıyev millətin tərəqqisində qadının rolunu düzgün qiymətləndirərək xalqa müraciət etdi: "Camaat, qızlarımızın zəmanə dərsi oxumaları vacibdir, gözləri açılar, külfətlə rəftarları xoş olar. İngiltərəyə, Germaniyaya, Firəngistana gedib oxuyan cavanlarımızın hərəsi oralardan qollarına bir arvad keçirib gətirirlər. Çünki öz qızlarımızla məcazları tutmur, dolana bilmirlər. Əcnəbi arvadlardan doğulan uşaqlar da, öz-özünə olurlar, mürtəd və bütün varidatımıza vərəsə çıxırlar. İş belə getsə ata-baba ocağı qalacaq Quransız, namazsız, şəriətsiz". Məhz bu müraciətdən sonra Azərbaycanda ilk qızlar məktəbi yaradıldı və qızlarımız savad almaqla yanaşı, həm də ailə işlərinin düzgün məcraya yönəldilməsi ilə biliklərə yiyələnməyə başladılar...

2011-ci ilin dekabr ayında BMT Baş Assambleyası Türkiyənin təklifi ilə 11 oktyabrın "Beynəlxalq Qızlar Günü" elan edilməsi ilə bağlı qərar qəbul etdi. Bu qərar Türkiyə, Kanada və Peru tərəfindən hazırlanan qətnamə əsasında verilib. İlk dəfə 2012-ci il oktyabrın 11-də qeyd olunmağa başlayan "Beynəlxalq Qızlar Günü"nün bu gün 11-ci ildönümüdür.

Bu günün keçirilməsində əsas məqsəd diqqəti qızların hüquqlarının müdafiəsinə, oğlan və qızlar arasında gender bərabərliyinin təmin olunmasına, müxtəlif növ ayrı-seçkilikdən əziyyət çəkən qızlara yönəltməkdir. Qız uşaqlarının üzləşdikləri ayrı-seçkilik və zorakılıq hallarının qarşısının alınması, haqlarının müdafiə edilməsi və onlara səlahiyyət verilməsi bəşəriyyətin inkişafı üçün vacibdir.

"Beynəlxalq Qızlar Günü"nün qeyd olunduğu son 11 ildə hökumətlər, siyasətçilər və geniş ictimaiyyət arasında qızlar üçün vacib olan məsələlərə diqqət artıb. Hazırda qızların qlobal səhnədə səslərini eşitdirmələri üçün daha çox imkanları var. Bununla belə, qızların üzləşdiyi çoxsaylı problemlər bitmək bilmir. Beynəlxalq ekspertlər deyirlər ki, dünyada gedən bir sıra proseslər qızların həyatında silinməz izlər qoyur: qızlar məktəbdən yayındırılır, erkən yaşda ərə verilir, insan alverinə məruz qalırlar. Onlar dünyanın bir çox yerlərində hər gün diskriminasiyaya və ayrı-seçkiliyə məruz qalırlar.

Qadın və qızların hüquqlarına çağırış ilk dəfə 1995-ci ildə Pekində keçirilən Qadınlar üzrə Ümumdünya Konfransında Pekin Bəyannaməsi ilə əldə edilib. Bu, dünya tarixində yeniyetmə qızların üzləşdiyi problemlərin həllinə ehtiyacı müəyyən edən ilk plan idi.

**Deyirlər, oğlan düşmən çəpəridirsə, qız evin yaraşığıdır, yaxud qız övladı valideynə xüsusi hədiyyədir...**

Azərbaycanda uşaqlar, xüsusilə də qızlarla bağlı məsələlərə dövlət tərəfindən həmişə diqqət yetirilir. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir ki, uşaqların yüksək təlim-tərbiyə alması üçün ölkədə hər şərait mövcuddur. Bu gün Prezidentimiz cənab İlham Əliyevin sayəsində Azərbaycanda ailələrin rifahının yüksəldilməsi, qadınların ictimai-siyasi həyata daha çox cəlb olunması və uşaq hüquqlarının təmin edilməsi üçün zəruri şəraitin yaradılmasına əsaslanan ciddi işlər görülür. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi hər il bu günün əsas devizi və çağırışlarına uyğun olaraq müxtəlif layihələr reallaşdırır. Ölkəmizdə erkən nikahların, təhsildən yayınma, qızlara qarşı ayrı-seçkilik hallarının qarşısının alınması məqsədi ilə bir sıra sistemli işlər həyata keçirilir.

Qızlarımızı geridə qoymayaq, onlara dəyər verək. "Tək əldən səs çıxmaz!" deyib ətrafımızda olan haqsızlıqlara susmayaq. Unutmayın, hər kəs istədiyi hər şeyi dəyişdirə bilər. İstəsək, tək bir əldən də səs çıxara bilərik.

Bu gün bir daha anlayaq ki, qadınların cəmiyyətimizdə dəyəri əvəzlunmazdır. Gələcək nəsillərimizin taleyini müəyyənləşdirən qadınları güclü yetişdirək ki, güclü gələcəyimiz olsun!

***Günel ABBAS***



## Bakıda qolf üzrə Zəfər Turnirinə yekun vurulub




Xəyal adasında (Dreamland) start götürən qolf üzrə Zəfər Turnirinə yekun vurulub.

AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyi və Azərbaycan Qolf Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirin A kateqoriyasında Rəcəb Tural qızıl, Villiam Blankard gümüş, Elman Rzayev bürünc medal qazanıblar.

B kateqoriyasında isə Regina Bədəlbəyova qızıl, Villi Qarden gümüş, Kallum Stüart isə bürünc medala layiq görülüblər.

## Avropa Kuboku: Azərbaycanın daha üç boksçusu 1/4 finala vəsiqə qazanıb

Monteneqronun Budva şəhərində boks üzrə Avropa Kubokunun ikinci günündə Azərbaycan millisinin 3 üzvü 1/4 finala yüksəlib.



AZƏRTAC xəbər verir ki, Tayfur Əliyev (60 kiloqram), Sərxan Əliyev (71 kiloqram) və Malik Həsənov (63,5 kiloqram) 1/8 finalda rəqiblərinə qalib gələrək mərhələ adlayıblar.

Tayfur Əliyev ilk döyüşünü qələbə ilə başa vurub. 1/8 finalda Cuzeppe Kanoniko (İtaliya) ilə qarşılaşan Avropa Oyunlarının mükafatçısı inamlı qələbə qazanıb - 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27). O, növbəti döyüşünə oktyabrın 12-də çıxacaq və Rusiyanı təmsil edən Arşak Tovmasyanla qarşılaşacaq.

T. Əliyevin qardaşı Sərxan Əliyev də Avropa kubokuna qələbə ilə start verib. 71 kiloqram çəkidə rinqə çıxan boksçu Toni Cası (İBAN) 5:0 (29:27, 29:27, 29:27, 29:27, 29:27) hesabı ilə məğlub edib. Əliyev 1/4 finalda israilli Miroslav Kapulerlə üz-üzə gələcək. Döyüş oktyabrın 12-də olacaq.

63,5 kiloqramda Malik Həsənov (63,5 kiloqram) da mərhələ adlayıb. O, 1/8 final mərhələsində Bartumey Roskovitsi (Polşa) mübarizədən kənarlaşdırıb. İdmançı 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27) hesabı ilə qələbə qazanıb. M. Həsənov ikinci döyüşündə fransalı Lunes Hamruini sınağa çəkəcək. Qarşılaşma oktyabrın 11-də olacaq.

Yarışın 3-cü günündə millinin daha 2 boksçusu mübarizəyə qoşulacaq. Nicat Hüseynov (54 kiloqram) Cianis Salotski (Belarus) ilə, Nəbi İsgəndərov (67 kiloqram) Adrian Krusla (İspaniya) gücünü yoxlayacaq.

Qeyd edək ki, daha əvvəl Şamil Əskərov (57 kiloqram) Avropa Kubokunda 1/4 finala vəsiqə qazanıb.

## Səudiyyə Ərəbistanı 2034-cü il futbol üzrə dünya çempionatına ev sahibliyi etmək istəyir



Səudiyyə Ərəbistanının Futbol Federasiyası 2034-cü il futbol üzrə dünya çempionatına ev sahibliyi etmək üçün Beynəlxalq Futbol Federasiyasına (FIFA) ərizə ilə müraciət edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanı Futbol Federasiyasının mətbuat xidməti məlumat yayıb.

"Biz 2034-cü il futbol üzrə dünya çempionatını keçirmək üçün FIFA-ya məktub göndərmişik. Bu, Beynəlxalq Futbol Federasiyasına üzv olan 70-dən çox assosiasiyadan dəstək aldıqdan sonra atdığımız ilk addımdır", - deyə mətbuat xidmətinin məlumatında bildirilir.

FIFA elan edib ki, 2034-cü il futbol üzrə dünya çempionatına ev sahibliyi etmək üçün yalnız Asiya və Okeaniya ölkələri namizədliyini irəli sürə bilər. 2026-cı il çempionatı ABŞ, Kanada və Meksikada baş tutacaq. 2030-cu ildə isə dünya çempionatının əsas ev sahibləri İspaniya, Portuqaliya və Mərakeş olacaq, turnirin açılış oyunu Uruqvayda, digər iki oyun isə Argentina və Paraqvayda keçiriləcək.

## AFFA-nın vitse-prezidenti: Estoniya yığması ilə oyundan müsbət nəticə gözləyirik



"Milli komandamız çox vacib oyunlara çıxacaq. Xüsusilə Estoniya yığması ilə matçdan müsbət nəticə gözləyirik".

Bu sözləri AZƏRTAC-a açıqlamasında AFFA-nın vitse-prezidenti Vaqif Sadıqov Azərbaycan millisinin AVRO-2024-ün seçmə mərhələsində Estoniya və Avstriya yığmalarına qarşı keçirəcəyi oyunlar barədə danışarkən deyib.

Funksioner bildirib ki, hər şey futbolçuların öz əlindədir: "Arzulayıram ki, millimiz yaxşı əhvali-ruhiyyə ilə Vətənə qayıdandan sonra Avstriya yığmasına qarşı da güclü mübarizə aparsın. Futbolçularımıza həmişə dediyim bir söz var: ya ümidsizsiniz, ya da ümid sizsiniz. Bu cümlənin anlamını komandanın bütün üzvləri dərk etməlidirlər. Hər şey oyunçuların öz əllərindədir".

Qeyd edək ki, oktyabrın 13-də səfərdə Estoniyanın qonağı olacaq Azərbaycan millisi bundan üç gün sonra Bakıda Avstriya yığmasını qəbul edəcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 6834**
**Sifariş: 2644**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Məsul növbətçi:
Günel Abbas